# QƏDİM DİYAR

Beynəlxalq onlayn elmi jurnal

# ANCIENT LAND

International online scientific journal

aem.az

AEM

ISSN: 2706-6185
e-ISSN: 2709-4197

**AZƏRBAYCAN RESPUBLİKASI**

**THE REPUBLIC OF AZERBAIJAN**

# QƏDİM DİYAR

**Beynəlxalq onlayn elmi jurnal**

**Cild: 5 Sayı: 1**

# ANCIENT LAND

**International online scientific journal**

**Volume: 5 Issue: 1**

**Bakı – Baku**
**2022**

Jurnal 31.01.2012-ci ildə
Azərbaycan Respublikası
Ədliyyə Nazirliyi
Mətbu nəşrlərin
reyestrinə daxil edilmişdir
Reyestr №3534

Journal on 31.01.2012
Republic of Azerbaijan
Ministry of Justice Press
publications entered
in the register.
Registration No. 3534

**Redaksiyanın ünvanı**
Az1073, Bakı şəh.,
Mətbuat prospekti, 529,
"Azərbaycan" nəşriyyatı,
6-cı mərtəbə

**Editorial address**
Az1073, Baku,
Matbuat Avenue, 529,
"Azerbaijan" Publishing House,
6-th floor

**Tel.:** +994 50 209 59 68
+994 55 209 59 68
+994 99 806 67 68
+994 12 510 63 99

**e-mail**
qedim.2012@aem.az

## Beynəlxalq indekslər / International indices

**ISSN: 2706-6185**
**e-ISSN: 2709-4197**
**DOI: 10.36719**

© Jurnalda çap olunan materiallardan istifadə edərkən istinad mütləqdir.
© It is necessary to use reference while using the journal materials.
© https://aem.az
© info@aem.az

## Təsisçi və baş redaktor

**Tədqiqatçı Mübariz HÜSEYİNOV**, Azərbaycan Elm Mərkəzi / Azərbaycan
+994 50 209 59 68
tedqiqat1868@gmail.com
https://orcid.org/0000-0002-5274-0356

## Founder and Editor-in-Chief

**Researcher Mubariz HUSEYINOV**, Azerbaijan Science Center / Azerbaijan
+994 50 209 59 68
tedqiqat1868@gmail.com
https://orcid.org/0000-0002-5274-0356

## Redaktor

**Assoc. Prof. Dr. Pərvanə PAŞAYEVA**, Bakı Dövlət Universiteti / Azərbaycan
p.parvana84@gmail.com

## Editor

**Assoc. Prof. Dr. Parvana PASHAYEVA**, Baku State University / Azerbaijan
p.parvana84@gmail.com

## Redaktor köməkçisi

**Magistrant Gülşən ATAKİŞİYEVA**, Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan
a_gulsen00@mail.ru

## Assistant editor

**Master Gulshan ATAKISHIYEVA**, Azerbaijan State Pedagogical University / Azerbaijan
a_gulsen00@mail.ru

## Redaktor köməkçisi

**Tədqiqatçı Nəhayət HÜSEYNLİ**, Azərbaycan Elm Mərkəzi / Azərbaycan
nehayet.huseynli@gmail.com

## Assistant editor

**Researcher Nahayat HUSEYNLI**, Azerbaijan Science Center / Azerbaijan
nehayet.huseynli@gmail.com

## Dillər üzrə redaktorlar

**Prof. Dr. Abbas ABBASOV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Nəriman SEYİDƏLİYEV**, AMEA Dilçilik İnstitutu / Azərbaycan

## Language editors

**Prof. Dr. Abbas ABBASOV**, Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Nariman SEYIDALIYEV**, ANAS Institute of Linguistics / Azerbaijan

## Elmi sahələr üzrə redaktorlar

**Prof. Dr. Vaqif SOLTANLI**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Ələmdar ŞAHVERDİYEV**, Bakı Dövlət Universiteti / Azərbaycan

## Editors in scientific fields

**Prof. Dr. Vagif SOLTANLI**, Baku State University / Azerbaijan
**Prof. Dr. Alamdar SHAHVERDIYEV**, Baku State University / Azerbaijan

## REDAKSİYA HEYƏTİ

**Prof. Dr. Nailə VƏLİXANLI**, Tarix muzeyi / Azərbaycan
**Prof. Dr. Nərgiz AXUNDOVA**, AMEA Tarix İnstitutu / Azərbaycan
**Prof. Dr. Abdulkadir GÜL**, Ərzincan Binalı Yıldırım Universiteti / Türkiyə
**Prof. Dr. Qəzənfər KAZIMOV**, AMEA Dilçilik İnstitutu / Azərbaycan
**Prof. Dr. Coanna MARŞALEK-KAVA**, Nikolay Kopernik Universiteti / Polşa
**Prof. Dr. Vidas KAVALİUSKAS**, Vilnus Biznes Universiteti / Litva
**Prof. Dr. Şirindil ALIŞANOV**, AMEA Ədəbiyyat İnstitutu / Azərbaycan
**Prof. Dr. Firuzə ABBASOVA**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Svetlana KOJİROVA**, L.N.Qumilyov adına Avrasiya Milli Universiteti / Qazaxıstan
**Prof. Dr. Masumə DAEİ**, Təbriz Payame Noor Universiteti / İran İslam Respublikası
**Prof. Dr. Rafail HƏSƏNOV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Mönsüm ALIŞOV**, "İdrak" liseyi / Azərbaycan
**Assos. Prof. Dr. İosefina BLAZSANİ-BATTO**, Rumın Dili və Mədəniyyəti Mərkəzi / Rumıniya
**Assoc. Prof. Dr. Andrey RAQULİN**, Rusiya Federasiyasının DİN Moskva Universiteti / Rusiya
**Assoc. Prof. Dr. Dürdanə MƏMMƏDOVA**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Gülçöhrə ƏLİYEVA**, Dəniz Akademiyası / Azərbaycan
**Assoc. Prof. Dr. Cəbi BƏHRAMOV**, AMEA Tarix İnstitutu / Azərbaycan
**Assoc. Prof. Dr. Nasiba SABİROVA**, Urgenc Dövlət Universiteti / Özbəkistan
**Assoc. Prof. Dr. Fərqanə ƏLİYEVA**, DİN-nin Polis Akademiyası / Azərbaycan
**Assoc. Prof. Dr. Lyudmila CAVADOVA**, İqtisadiyyat və Hüquq üzrə Pedaqoji Kollec / Rusiya, Dağıstan Respublikası
**Assoc. Prof. Dr. Şəhla ƏHMƏDOVA**, Bakı Slavyan Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Andrey SIZRANOV**, Həştərxan Dövlət Universiteti / Rusiya
**Assoc. Prof. Dr. Rəşad SADIQOV**, Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Ramis HƏŞİMOV**, Dağıstan Dövlət Universitetinin Dərbənd filialı / Rusiya, Dağıstan Respublikası

## EDITORIAL BOARD

**Prof. Dr. Naila VALIKHANLI**, The museum of History / Azerbaijan
**Prof. Dr. Nargiz AKHUNDOVA**, Institute of History of ANAS / Azerbaijan
**Prof. Dr. Abdulkadir GUL**, The University of Arzinjan Binali Yildirim / Turkey
**Prof. Dr. Gazanfar KAZIMOV**, Institute of Linguistics of ANAS / Azerbaijan
**Prof. Dr. Joanna MARSZALEK-KAVA**, Nicolaus Copernicus University / Poland
**Prof. Dr. Vidas KAVALIUSKAS**, Vilnius Business University / Lithuania
**Prof. Dr. Shirindil ALISHANOV**, ANAS Institute of Literature / Azerbaijan
**Prof. Dr. Firuza ABBASOVA**, Baku State University / Azerbaijan
**Prof. Dr. Svetlana KOJIROVA**, L.N.Gumilyov Eurasian National University / Kazakhstan
**Prof. Dr. Masuma DAEI**, Payame Noor University of Tabriz / Islamic Republic of Iran
**Prof. Dr. Rafail HASANOV**, Baku State University / Azerbaijan
**Prof. Dr. Monsum ALISHOV**, Idrak Lyceum / Azerbaijan
**Assos. Prof. Dr. Iosefina BLAZSANI-BATTO**, Romanian Language and Cultural Center / Romania
**Assoc. Prof. Dr. Andrey RAGULIN**, Moscow University of the Ministry of Internal Affairs of the Russian Federation / Russia
**Assoc. Prof. Dr. Durdana MAMMADOVA**, Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Gulchora ALIYEVA**, Azerbaijan State Marine Academy / Azerbaijan
**Assoc. Prof. Dr. Jabi BAHRAMOV**, The Institute of History of ANAS / Azerbaijan
**Assoc. Prof. Dr. Nasiba SABIROVA**, Urgench State University / Uzbekistan
**Assoc. Prof. Dr. Fargana ALIYEVA**, Police Academy of the Ministry of Internal Affairs / Azerbaijan
**Assic. Prof. Dr. Lyudmila JAVADOVA**, Pedagogical College on Economy and Law / Russia, the Dagestan Republic
**Assic. Prof. Dr. Shahla AHMADOVA**, Baku Slavic University / Azerbaijan
**Assoc. Prof. Dr. Andrey SIZRANOV**, Astrakhan State University / Russia
**Assoc. Prof. Dr. Rashad SADIGOV**, Azerbaijan State Pedagogical University / Azerbaijan
**Assoc. Prof. Dr. Ramis HASHIMOV**, Derbend branch of Dagestan State University / Russia, the Dagestan Republic

DOI: https://doi.org/10.36719/2706-6185/19/5-12

**Aynur Aydın qızı Fərəcova**
Azərbaycan Texniki Universiteti
filologiya üzrə fəlsəfə doktoru
karimovaaynur@gmail.com

# “OĞUZNAMƏ” EPOSUNUN UYĞUR VERSİYASINDA OĞUZ KAĞAN OBRAZININ TEOQONİK SEMANTİKASI

**Xülasə**

Türk epik-mifoloji düşüncəsində teoqonik obrazlar sisteminin tədqiqi baxımdan ən zəngin qaynaqlardan birini çoxsaylı variantları olan “Oğuznamə” eposu təşkil edir. “Oğuznamə” dastanının bizə məlum olan variantlarının, demək olar ki, hamısı islami oğuznamələdir. Onların içərisində yalnız biri – uyğur hərfləri ilə yazılmış “Oğuz kağan” dastanı bu baxımdan istisna təşkil edərək, İslamdan qabaqkı epik-mifoloji görüşləri əks etdirir. “Oğuz kağan” dastanının əlamətdar cəhəti onda Oğuz teoqoniyasının bütöv bir proses şəklində öz ifadəsini tapmasıdır. Dastan bu cəhətdən Oğuz teoqonik təsəvvürləri haqqında zəngin biliklər təqdim edir. Dastanda Oğuz kağan bilavasitə tanrı Ay kağanın övladı kimi “Tanrı oğlu” statusunu daşıyır. Oğuz kağan bir Tanrı oğlu olduğu üçün onun övladları da Tanrının nəsli, yəni nəvə-nəticələri hesab olunurlar. Beləliklə, “Oğuznamə”nin uyğur versiyasında təsvir olunan yaradılış prosesi Tanrıdan başlanmaqla tam bir teoqonik sistemidir.

***Açar sözlər:*** *teoqoniya, Oğuznamə, Oğuz kağan, Tanrı, dastan, epos, mifologiya, kosmoqoniya*

**Aynur Aydin Farajova**
Azerbaijan Technical University
doctor of pilosophy in philology
karimovaaynur@gmail.com

## Theogonical semantics of Oguz khagan image in the uigur version of the epic "Oguznama"

**Abstract**

One of the richest sources for the study of the system of theogonic images in Turkish epic-mythological thought is the epic "Oguzname", which has many variants. Almost all of the versions of the "Oghuznama" saga known to us are oghuznams related to the Islamic religion. Only one of them - the epic "Oguz Kagan" written in Uyghur characters, is an exception in this respect and reflects epic-mythological encounters before Islam. The remarkable aspect of the "Oguz Kagan" epic is that the Oguz theogony finds its expression in the form of a whole process. In this respect, the saga provides rich knowledge about Oghuz theogonic ideas. In the epic, Oguz Kagan has the status of "Son of God" as the direct son of the god Ay Kagan. Since Oguz Kagan was a son of God, his children are considered God's descendants, that is, his grandchildren. Thus, the process of creation described in the Uighur version of the Oguzname is a complete theogonic system, beginning with God.

***Keywords:*** *theogony, Oguzname, Oguz khagan, God, epic, heroism, mythology, cosmogony*

## Giriş

Türk epik-mifoloji düşüncəsində teoqonik obrazlar sisteminin tədqiqi baxımdan ən zəngin qaynaqlardan birini çoxsaylı variantları olan “Oğuznamə” eposu təşkil edir (Abugaz, 1992: 74; Bayat, 1993: 194; Bekmiradov, 1987; Tehrani, 1998: 336; Əbülqazi, 2002: 146; Əndəlib, 2010: 76; Bayati, 2011: 68; Mənzum Oğuznamə, 2005: 84; Oğuz Kağan dastanı, 2002: 3-58; Oğuzname (Kazan Copy), 2015: 590; Oğuznamələr, 1993: 94; Rəşidəddin, 1992: 72; Rəşidəddin, 2003: 108; Toğan, 1972: 27; Salar Baba, 1992: 95-119; Salar Baba, 2021: 72; Bukhari Khafiz-i, 1983: 543; Rashid-ad-Din, 1946-1960: 903; Rashid ad-Din, 1987: 127). Bu epos Oğuz etnosunun tarixini,

mədəniyyətini, epik-mifoloji görüşlərini özündə inikas edir. Oğuz xalqları hətta XX əsrə qədər ulu əcdad Oğuz xan haqqındakı əfsanə və rəvayətləri öz yaddaşlarında canlı şəkildə yaşatmışlar. Həmin əfsanə və rəvayətlər bütövlükdə əsrləri, epoxları öz içərisinə alan, çox qədim tarixə malik "Oğuznamə" eposunun tərkib hissələri hesab olunur. Bu cəhətdən, "Oğuznamə" eposunun müxtəlif variantlarında qədim oğuz türklərinin teoqonik təsəvvürləri də əks olunmuşdur.

Oğuz türklərinin ulu əcdadı Oğuz xan haqqındakı epik-mifoloji, tarixi-epik məlumatları özündə daşıyan epos bütövlükdə "Oğuznamə" adlanır. "Oğuznamə" bir söz kimi hərfi mənada "Oğuz kitabı" deməkdir. V.M.Jirmunski "Oğuz-namə" terminindən söhbət açarkən onun XV-XVI əsrlərdə oğuzların epik-əfsanəvi tarixinin yazılı və şifahi-bədii abidələrini əhatə etdiyini göstərmişdir (Zhirmunskii, 1974: 522).

B.Ögelə görə, "Oğuz dastanı" ("Oğuznamə" – **A.Fərəcova**) türklərin qurduqları böyük dövlətlərə və dünya imperatorluqlarına aid bir dastandır. Bəlkə, minlərcə il üç qitədə türk tayfaları və türk ozanlarının ağlında və duyğularında yaşamışdır. Bu gün bizə qədər gəlmiş Oğuz dastanları, tam bir mifologiya deyildir. Bəlkə də, bəzi simvollar ilə müəyyən şeylərin anladılması istənilmişdir. "Türk törəsinin quruluşu" "Oğuz" dastanlarının ana mövzusudur. Türk milləti və türk dövlətinin sistemi və nizamı "Oğuz" dastanı vasitəsi ilə anladılmışdır (Ögəl, 1995: 1).

Türk mifologiyasını türk dastanları əsasında yazmış Bəhaəddin Ögelin (Ögəl, 1989: 644; Ögəl, 1995: 1) bu fikri "Oğuznamə" dastanında teoqonik görüşlərin inikası baxımından diqqəti cəlb edir:

1. Alimə görə, "Oğuznamə" dastanı tam bir mifologiya olmasa da, onda oğuz türklərinin mifoloji görüşləri, ən azı, mifoloji simvollar şəklində əks olunmuşdur. Teoqonik görüşlər isə mifologiyanın üzvi tərkib hissəsidir. Bu cəhətdən, "Oğuznamə" dastanında teoqonik görüşlər də qorunub qalmışdır.

2. B.Ögelin "Oğuznamə" dastanlarının ana mövzusunun "türk törəsinin quruluşu" olması və türk milləti və türk dövlətinin sistemi və nizamının "Oğuznamə" dastanı vasitəsi ilə anladılması fikri bilavasitə teoqonik görüşlərlə bağlıdır. Belə ki, bütün qədim türklər kimi, Oğuz türkləri də onların dövlət nizamını, bütün adət-ənənələrini Tanrının müəyyənləşdirdiyinə inanmış və buna görə də həmin nizamı, qayda-qanunları müqəddəs etmişlər. Bu qanunları pozmaq Tanrının əleyhinə getmək kimi qiymətləndirilmişdir. Məsələn, "Kitabi-Dədə Qorqud" eposunun birinci boyunda Bayındır xanın ağ, qırmızı və qara rənglərdə üç çadır qurdurur, oğlu olanları – ağ çadırda, qızı olanları – qırmızı çadırda, oğlu-qızı olmayanları – qara çadırda qəbul etməyi əmr edir, övladı olmayan Dirsə xan bundan inciyərək əsəbiləşir, lakin o, biləndə ki, Bayındır xanı bu hərəkətilə Tanrının buyruğunu ("Oğlı-qız olmıyanı Tənri-təala qarğayıbdır, biz dəxi qarğarız" (Kitabi-Dədə Qorqud 1988: 34) yerinə yetirir, onda dərhal buyruğa tabe olur. Dirsə xanın Bayındır xana olan ani (impulsiv) qəzəbi ona görə soyuyur ki, Bayındır xan ildə bir dəfə icra etdiyi mərasimi öz istəyinə görə həyata keçirmirdi: o, Tanrının əmrini yerinə yetirirdi. Burada teoqonik baxımdan diqqətimizi cəlb edən ən mühüm məqam budur ki, 24 Oğuz tayfasının böyüyü, bütün tayfa başçılarının başçısı, yəni xanlar xanı olan Bayındırın Tanrı ilə əlaqəsi var idi. Biz Oğuz elində Dədə Qorqudun Tanrı ilə əlqəsinin olduğunu bilirik. Eposun ilk cümləsində deyildiyi kimi: "Həq təala anın könlinə ilham edərdi" (Kitabi-Dədə Qorqud 1988: 34). Yəni Oğuz elinin "bilicisi" olan Qorqut ata bütün məlumatları Tanrıdan ilham yolu ilə alırdı. Bayındır xan isə "bilici" deyildi, dastan onu heç bir yerdə "bilici" kimi təqdim eləmir. Ancaq onun adındakı "Qam Ğan oğlı" sözləri Bayındır xanın qam/şaman mənşəyinə işarə edir. Yəni Tanrı Oğuz elinə aid məlumatları Dədə Qorqud və Bayındır vasitəsilə insanlara çatdırırdı. Bu məlumatlar məzmunca fərqlidir. Tanrı Qorquda və Bayındıra hərəsinin cəmiyyət daxilindəki statuslarına, rolarına və funksiyalarına (vəzifələrinə) görə məlumatlar verirdi. Bu cəhətdən, Dədə Qorqudun funksiyası insanlara gələcəkdən xəbər vermək, onların başlarına nə gələcəyini bildirmək idi. Bayındır xan isə cəmiyyəti idarə edirdi: o, qamlama yolu ilə Tanrıdan cəmiyyəti necə idarə etmək haqqında əmrlər alırdı. Bayındır xanın Tanrı ilə əlaqəsi teoqonik səciyyə daşıyır. Onun xanlar xanı statusu ulu əcdad Oğuz xanın statusudur. O, Oğuz xanın taxtında oturmaqla onu əvəz edirdi. Bu cəhətdən, Bayındır xanın Tanrı ilə əlaqələri Oğuz xanın əlaqələrinin davamıdır. Oğuz xan isə bilavasitə göylərdən, yəni Ay kağanın gözündən doğulmuşduir. Bu da onun Tanrı oğlu statusunu göstərir.

Faruq Sümər "Oğuznamə" dastanlarının bilavasitə oğuzların milli şüuru, milli ideologiyası ilə bağlı olduğunu göstərmişdir. O, "Oğuz kağan" və Fəzlullah Rəşidəddin "Oğuznamə"si barəsində göstərir ki, "hər iki əsər bizə bu türkçülük şüurunun mahiyyəti haqqında olduqca aydın bir fikir verməkdədir". Alimə görə, "Oğuznamə"də əks olunmuş türkçülük şüuru aşağıdakı müddəalardan təşkil olunurdu:

a) Oğuz Xandan əsərin yazıldığı dövrə qədər türk aləmini adları zikr edilən bu xalqlar təmsil etməkdədir: Oğuz (türkmən), uyğur, qıpçaq, qanlı, karluk, kalaç.

b) Türklərin də qədim zamanlarda yaşamış monqolların Çingiz xanı kimi, cahangir hökmdarları vardır. Bu cahangir hökmdarın adı Oğuz Kağan və yaxud Xandır.

v) Türk dünyası Oğuz Xanın böyük fütuhatları nəticəsində meydana gəlmişdir. Yəni türk xalqlarının Beş Balaq bölgəsindən Qara dənizin şimalına və Adalar dənizinə qədər yayılmış olmaları Oğuz xanın fəthləri ilə bağlıdır.

q) Oğuzlar Oğuz xanın 24 nəvəsindən törəmişlər. Uyğurlar Oğuz Xanın öz xalqı və ya itaət evi türklərdir. Qıpçaq, qanlı, karluq və kalaçlar da Oğuz xanın bəylərindən törəmişlər.

d) "Türklərin tarixi" fəslində Oğuz Xan xalqını haqq dininə qovuşdurmaq üçün Tanrı tərəfindən göndərilmiş bir peyğəmbər-hökmdar olaraq göstərilir. Beləliklə, həm xalqın Allahın dininə iman gətirmiş, həm də böyük fəthlər etmiş bir peyğəmbər-hökmdara sahib olmaları ilə türklərin monqollar və ərəblər qədər şərəfli, hətta onlardan daha şərəfli və üstün bir xalq olduqları ifadə edilmişdir (Sümər, 1992: 346-347).

F.Sümərin qeyd etdiyi "q" və "d" maddələri bilavasitə teoqonik görüşlərlə bağlıdır. Oğuz xanın 24 nəvəsi Tanrı ailəsi hesab olunur. Belə ki, Oğuz kağan Ay kağanın gözündən doğulmuşdur. Bu cəhətdən, onlar Tanrının ailəsinə daxil olan Ay kağanın nəticələri kimi Tanrı xəttinə, Tanrı şəcərəsinə aid idilər.

Rəşidəddində Oğuz xanın öz xalqını haqq dininə qovuşdurmaq üçün bilavasitə Tanrı tərəfindən göndərilmiş bir peyğəmbər-hökmdar olaraq göstərilməsi Oğuz xanın Tanrı ilə genetik bağlılığını, yəni onun şəcərəsinə aid olmasını ortaya qoyur.

Xalıq Koroğlunun "Oğuznamə" dastanının müxtəlif variantlarında oğuzların qəhrəmanlıq keçmişinin, erkən görüş, ənənə və inamlarının əks olunduğunu göstərməsi (Koroğlu, 1999: 36-37) də bu abidəni teoqonik-mifoloji görüşlərin qaynağı kimi təsdiq edir. Eyni fikri Kamil Vəli Nərimanoğlu və Fəxri Uğurlunun "Oğuznamə" dastanını türk xalqının həyatını, mübarizəsini, mənəviyyatını əks etdirən ədəbi-tarixi qaynaq, tarix, həyat kitabı hesab etmələri (Oğuznamələr, 1993: 3) haqqında da demək olar. K.V.Nərimanoğluna görə, oğuznamələri yaradanlar (qam-şaman-ozan-baxşı-akınlar) "Haqq-Taala könlünə ilham etmiş" ustadlar olublar (Nərimanoğlu, 2004: 78). Bu da onu göstərir ki, oğuznamələr bilavasitə tanrıçılıq görüşləri, teoqonik təsəvvürlərlə bağlıdır.

Nizami Cəfərov yazır ki, Oğuz türkləri hər cür kitabı deyil, bilavasitə xalq təfəkkürünün məhsulu olan kitabları "Oğuznamə" adlandırmışlar. "Oğuznamə"lər həm mövzularına, həm də ideya-bədii xüsusiyyətlərinə görə, əslində, "Türknamə"lər olub, ümumən, türk epik təfəkkürünü əks etdirir" (Cəfərov, 2002: 148). "Oğuznamə"lərin ideya-estetik baxımdan "Türknamə" statusunda olması onların həm də türk epik-mifoloji təsəvvürlərini, o cümlədən teoqonik törüşlər sistemini bu və ya başqa formada özündə yaşatması deməkdir.

"Oğuznamə" eposunu "folklorla yazılı ədəbiyyatın bir nöqtədə birləşdiyi məqam" kimi səciyyələndirən Ramazan Qafarlı onun "dastanlaşan mifoloji və tarixi əhvalat, əfsanə, rəvayətlər"lərin məcmusu olduğunu göstərmişdir (Qafarlı, 2002: 577). Bu da öz növbəsində oğuz türklərinin teoqonik görüşlərinin "Oğuznamə" dastanın variantlarında "dastanlaşdığını", yəni dastan janrının tələbləri əsasında yenidən formalaşdığını, teoqonik görüşlərin dastanlara transformasiya olunduğunu ortaya qoyur.

Qeyd edək ki, teoqonik görüşlərin dastanlara transformasiya olunmasını Fərəh Cəlil də qeyd etmişdir (Cəlil, 2010: 66).

Oğuzların ictimai-siyasi, tarixi-mifoloji, dini-fəlsəfi görüşlərini, epik-bədii təfəkkürünü əks etdirən nümunələrə elmi ədəbiyyatda "Oğuznamə" deyildiyini göstərən Füzuli Bayat bu abidədə oğuzların kosmoetnoqonik və təqvim miflərinin, dastanlarının, rəvayətlərinin, atalar sözlərinin,

şəcərə dəbinin, məsəllərinin, şeir parçalarının birləşdiyini vurğulamaqla (Bayat, 2004: 255) bu eposu həm də teoqonik görüşlərin əks olunduğu qaynaq kimi təsdiq etmişdir.

Əfzələddin Əsgər "Oğuznamə" dastanının "etnik kimlik şüurunun ifadəsi" olduğunu vurğulayaraq, onu "əcdadlar haqqında dastan" kimi səciyyələndirmişdir (Əsgər, 2013: 53). 24 Oğuz tayfasının əcdadlarının Oğuz xanın şəcərə xətti ilə Tanrıya gedib çıxdığını nəzərə alsaq, onda "Oğuznamə"nin bilavasitə teoqonik görüşlərlə bağlı olduğunu demək olar.

"Oğuznamə" dastanının tarixən üç yazı mərhələsindən ("Bitik", "Namə" və "Kitab") keçdiyini göstərən Ağaverdi Xəlilə görə, "Bitik" türk Tanrıçılığı dövrünə aid qədim və müqəddəs kitab idi. Qorqud həmin dinin peyğəmbəri idi (Khalil, 2004: 228). Bu fikir də bizə "Oğuznamə"nin qədim "əcdadı" olan "Bitik"in bilavasitə teoqonik görüşlərlə bağlı olduğunu söyləməyə imkan verir.

"Oğuznamə" dastanının bizə məlum olan variantlarının, demək olar ki, hamısı islami oğuznamələrdir. Onların içərisində yalnız biri – uyğur hərfləri ilə yazılmış "Oğuz kağan" dastanı bu baxımdan istisna təşkil edərək, İslamdan qabaqkı epik-mifoloji görüşləri əks etdirir. Dastan bu cəhətdən Oğuz teoqonik təsəvvürləri haqqında zəngin biliklər təqdim edir.

"Oğuz kağan" dastanının mövzumuz baxımından əlamətdar cəhəti onda Oğuz teoqoniyasının bütöv bir proses şəklində öz ifadəsini tapmasıdır.

Dastan bu misralarla başlanır:

Bolsun kıl deb dedilər.
Anunq anğu su (Bayat, 1993: 110).

Müasir Azərbaycan dilində:

Olsun dedilər.
Onun şəkli budur (Bayat, 1993: 124).

F.Bayat yazır ki, "əlyazmada "onun şəkli budur" cümləsindən sonra öküz şəkli çəkilib. Araşdırıcıların əksəriyyəti bu şəkli yenicə doğulmuş Oğuza aid edirlər" (Bayat, 1993: 141).

Dastanda daha sonra deyilir:

Yenə günlərin bir günü Ay kağanın
gözləri yarıdı, bir oğlu oldu (Bayat, 1993: 124).

Burada diqqəti cəlb edən Oğuz kağanın doğulmasının Ay kağanın gözü ilə bağlı olmasıdır. Seyfəddin Rzasoy bu barədə yazır: "Oğuz kağanı anası Ay kağan dünyaya gətirir. Burada tədqiqatçıların indiyə qədər diqqət vermədikləri orijinal doğuluş mifologemi – ***"gözdən doğulma"*** müşahidə olunur. Həmin mifologemin indiyə qədər öyrənilməməsi mətni orijinaldan tərcümə edən mütəxəssisləri də doğuluşu bildirən sözün dilimizdəki evkivalenti kimi fərqli sözlərdən istifadə etməyə sövq etmişdir. Belə ki, F.Bayat öz verdiyi mətindəki "Ay kağan nunq gözü yarıb butadı" (Bayat, 1993: 110) ifadəsini "Ay kağanın gözləri yarıdı" şəklində (Bayat, 1993: 124), K.V.Nərimanoğlu və F.Uğurlu verdikləri mətndə "Ay kağannun gözü yarıb bodadı" ifadəsini "Ay kağanın gözü parladı" şəklində (Oğuznamələr, 1993: 10) çevirmişlər. Beləliklə, F.Bayatda Oğuz kağan Ay kağanın "gözlərinin yarıması (yarılması – S.R.)" ilə, K.V.Nərimanoğlugildə "gözlərinin parlaması" ilə doğulur. Hər iki halda Oğuz Kağanın doğulması anası Ay Kağanın gözləri ilə bağlıdır və o, Ay Kağanın gözündən (gözlərindən - ?)" (Rzasoy, 2009: 92-93).

F.Bayat Ay kağan obrazı haqqında yazır ki, "kosmoqonik görüşlər sistemində Ay yaradıcı tanrı kimi anılır... Dastanda Ay kağan qadın başlanğıcı kimi təqdim olunur. Ayın kişi başlanğıcı kimi təsəvvür edildiyi mətnlər daha çoxdur... Ay kağanın Oğuzu dünyaya gətirməsi əski möcüzəli doğuluş motivinə (partogenez) uyğun gəlir və Oğuzun bakirə, pak hesab olunan Aydan doğulması onu Tanrı oğlu hesab etməyə imkan verir" (Bayat, 1993: 141).

Beləliklə, Oğuz bilavasitə tanrı Ay kağanın övladı kimi "Tanrı oğlu" statusunu daşıyır. Oğuz bir Tanrı oğlu olduğu üçün onun övladları da Tanrının nəsli, yəni nəvə-nəticələri hesab olunurlar.

Yenicə dünyaya gəlmiş Oğuz qeyri-adi görkəmə malik idi:

Bu oğlanın üzü göy idi.
Ağzı atəş kimi qırmızı,
gözləri ala,
saçları, qaşları qara idi.
Gözəllikdə mələklərdən də gözəl idi...
... Onun ayağı öküz ayağına,
beli qurd belinə,
kürəyi samur kürəyinə,
köksü ayı köksünə bənzəyirdi.
Bədənin hər yeri sıx tüklə örtülmüşdü (Bayat, 1993: 124).

Burada diqqəti cəlb edən cəhət Oğuzun bədəninin heyvanlara bənzəməsidir. Yəni onun yaradılışı ilə birgə sanki Oğuz dünyasının heyvanları da yaradılır.

Oğuz özü təbiət stixiyalarını təmsil etdiyi kimi, övladları da eyni şəkildə doğulurlar. Oğuzun anası göy cismi olan Ay kağan idi. Onun birinci xanımı da elə göydən gəlir:

Yenə günlərin bir günü
Oğuz kağan bir yerdə durub Tanrıya yalvarırdı.
Qaranlıq çökdü.
Göydən bir işıq düşdü:
Gündən işıqlı, Aydan parlaq idi.
Oğuz kağan yüyürdü, gördü ki,
bu işığın arasında
bir qız durub, yalqız oturub.
Çox gözəl qızdır.
Onun başında atəşli işıqlı
Altun kazık tək
yanan bir xalı vardı.
Qız o qədər gözəl idi ki,
gülsə mavi göy gülər, ağlasa ağlayardı.
Oğuz kağan onu gördükdə
özündən getdi, qızı sevdi, aldı.
Onunla yatdı, diləyin aldı.
Qız hamilə qaldı.
Günlər, gecələr ötdü.
Yükün yerə qoydu, üç oğlan doğdu.
Birincisinə – Gün adını qoydular.
İkincisinə – Ay adını qoydular.
Üçüncüsünə – Ulduz adını qoydular (Bayat, 1993: 125-126).

Bu yaradılış prosesində hər şey göylər aləmini təmsil edir:

a) Oğuz oturub Tanrıya yalvarırdı. Tanrıya yalvarmaq göyə yalvarmaq deməkdir. Tanrı – göyü bildirir.

b) Onun xanımı yerə işıq şəklində enir və bu işıq dastanda Günəşlə və Ayla əlaqələndirilir.

c) Qızın alnındakı xal ulduz kimi işıq saçır.

ç) Bu qızdan doğulan övladlar da göy cisimlərini təmsil edirlər: Gün, Ay, Ulduz.

Göründüyü kimi, Oğuzun göydən gələn birinci qızla evliliyindən yuxarı dünya yaradılır. İkinci evlilikdən isə aşağı dünya əmələ gəlir:

Yenə günlərin bir günü Oğuz kağan ova getdi.
Göl ortasında bir ağac gördü.
Bu ağacın oyuğunda bir qız vardı,
yalqız oturmuş idi.
Çox gözəl bir qız idi...
...Oğuz kağan onu gördükdə özündən getdi,
ürəyinə od düşdü, onu sevdi, aldı,
onunla yatdı, diləyin aldı.
Qız hamilə qaldı.
Günlər, gecələr keçdi.
Yükün yerə qoydu, üç oğlan doğdu.
Birincisinə – Göy adını qoydular.
İkincisinə – Dağ adını qoydular.
Üçüncüsünə – Dəniz adını qoydular (Bayat, 1993: 126-127).

Bu evliliyi səciyyələndirən cəhətlər bunlardır:

a) Oğuzun ikinci xanımı Yer, Su və Ağac ünsürləri ilə bağlıdır.

b) Doğulan övladlar aşağı dünyanın yaradılışını təmsil edirlər: Göy, Dağ, Dəniz. Burada Göy Günəşdən və Aydan aşağıda olan dünyanı bildirir.

Dastanda daha sonra göstərilir ki, Oğuzun altı oğlundan 24 nəvə doğulur və onlardan 24 tayfadan ibarət Oğuz xalqı yaranır. Beləliklə, "Oğuznamə"nin uyğur versiyasında təsvir olunan yaradılış prosesi Tanrıdan başlanmaqla tam bir teoqonik sistemidir (Bayati, 2011: 68).

Elçin Qaliboğlu yazır ki, "Oğuznamə"də Oğuz kosmosunun (dünyasının – **A.Fərəcova**) yaranması sxemi belədir:

1. Əvvəlcə Oğuz doğulur;
2. Oğuz daha sonra günəş şüası şəklində yerə enən qızla evlənir və ondan Gün, Ay, Ulduz adlı üç oğlu olur;
3. Oğuz daha sonra gölün ortasındakı ağacın koğuşunda tapdığı qızla evlənir və ondan da Göy, Dağ, Dəniz adlı üç oğlu olur;
4. Oğuz ölməmişdən qabaq 6 oğlu və onlardan doğulan 24 nəvəni Boz oq və Uc oq olmaqla iki qola ayırır (Qaliboğlu, 2020: 29).

R.Qafarlı dastandakı teo-kosmoqnik prosesə sayların kosmoqonik hamoniyası baxımından yanaşaraq yazır ki, qədim oğuz-türk mifologiyasında dünyanın say sistemi ilə yaranan dolğun, mükəmməl və tam modelinə rast gəlirik:

– **Vahid** başqa **biri** (Oğuzu) dünyaya gətirir, ondan **iki üçlük** (toplusu **altı** edir**)** doğulur.

– **Birinci üçlük** barədə mətndə deyilir ki, göydən şüa düşür. Oğuz görür ki, Günəşdən işıqlı, Aydan parlaq işığın arasında gözəl bir qız oturmuşdur.

– Başı qızıl qütb ulduzlu bu qızdan onun **üç oğlu** olur: Gün, Ay və Ulduz.

Üç qardaşın nəsli sonralar Bozoxlar – pozuxlar adı ilə tanınır.

– **İkinci üçlüklə** bağlı mifdə göstərilir ki, Oğuz göl ortasında bir ağac görür. Ağacın oyuğunda gözəl bir qız oturmuşdu.

– Gözləri göydən də göy, saçları dalğa kimi, dişləri inci tək olan bu qızdan da Oğuzun üç oğlu dünyaya gəlir: Göy, Dağ, Dəniz.

– Bu üç qardaşdan törəyən nəsillər isə Üçoxlar adını daşıyır.

– Azərbaycan türklərinin söy kökündə həm Bozox, həm də Üçox tayfaları iştirak edir.

–**Altılardan** isə **altı dördlük** meydana gəlir:

–BOZOXLAR (pozuxlar):

– b**irinci dördlük** Gün xanın övladlarıdır: Kayı, Bayat, Alkaravlı (Alka-evli), Qara Avul (Qara-evli);

– i**kinci dördlük** Ay xanın övladlarıdır: Yazır, Dogər, Dodurğa (Durdurqa), Yaparlı (Cayurlu);

– **üçüncü dördlük** Ulduz xanın övladlarıdır: Avşar (Əfşar), Kızık, Bəgdili, Karkın (Bayat, Əfşar, Bəgdili sonralar əsasən Azərbaycan türklərinin içərisində ərimişdir);

– ÜÇOXLAR: d**ördüncü dördlük** Göy xanın övladlarıdır: Bayandur, Beçenə (Peçeneq), Çavuldur, Çəpəni;

– b**eşinci dördlük** Dağ xanın övladlarıdır: Salur, Eymur, Alayurtlu, Ürəgür;

– a**ltıncı dördlük** Dəniz xanın övladlarıdır: İqdır, Bəgdüz, Yıva, Kınık. Bu boylardan Bayandur, Beçənə, Çavuldur, Salur, Alayurtlu, Bəgdüz Azərbaycan türklərini formalaşdıran tayfalardandır" (Qafarov, 2010: 35).

## Nəticə

Beləliklə, təhlil nəticəsində aydın oldu ki, Türk epik-mifoloji düşüncəsində teoqonik obrazlar sisteminin tədqiqi baxımdan ən zəngin qaynaqlardan birini çoxsaylı variantları olan "Oğuznamə" eposu təşkil edir. "Oğuznamə" dastanının bizə məlum olan variantlarının, demək olar ki, hamısı islami oğuznaməlidir. Onların içərisində yalnız biri – uyğur hərfləri ilə yazılmış "Oğuz kağan" dastanı bu baxımdan istisna təşkil edərək, İslamdan qabaqkı epik-mifoloji görüşləri əks etdirir. "Oğuz kağan" dastanının əlamətdar cəhəti onda Oğuz teoqoniyasının bütöv bir proses şəklində öz ifadəsini tapmasıdır. Dastan bu cəhətdən Oğuz teoqonik təsəvvürləri haqqında zəngin biliklər təqdim edir. Dastanda Oğuz kağan bilavasitə tanrı Ay kağanın övladı kimi "Tanrı oğlu" statusunu daşıyır. Oğuz kağan bir Tanrı oğlu olduğu üçün onun övladları da Tanrının nəsli, yəni nəvə-nəticələri hesab olunurlar. Beləliklə, "Oğuznamə"nin uyğur versiyasında təsvir olunan yaradılış prosesi Tanrıdan başlanmaqla tam bir teoqonik sistemidir.

## Ədəbiyyat

1. Abugazi. (1992). Shejerei terakime. Aşkabat, 74 s.
2. Bayat, F. (1993). Oğuz epik ənənəsi və "Oğuz kağan" dastanı. Bakı: Sabah, 194 s.
3. Bekmiradov, A. (1987). Andalıp xem Oquznamaçılık dəbi. A.Bekmıradov. Aşqabat: Ilım.
4. Tehrani, Ə. (1998). Kitabi-Diyarbəkriyyə. Fars dilindən tərcümə edən, ön söz və şərhlərin müəllifi R.Şükürova. Bakı: Elm, 336 s.
5. Əbülqazi, B.X. (2002). Şəcərei-Tərakimə (Türkmənlərin soy kitabı). Rus dilindən tərcümə edən, ön söz və göstəricilərin müəllifi və biblioqrafiyanın tərtibçisi İ.M.Osmanlı. Bakı: Azərbaycan Milli Ensiklopediyası N-PB, 146 s.
6. Əndəlib. (2010). Oğuznamə. Azərbaycan türkcəsinə çevirən, nəşrə hazırlayan və ön sözün müəllifi İ.Osmanlı. Bakı: Ulu, 76 s.
7. Mənzum Oğuznamə. (2005). Qədim türkcədən çevirən və ön sözün müəllifi İ.M.Osmanlı. Bakı: Ulu, 84 s.
8. Oğuz Kağan dastanı. (2002). Aydın Abi Aydın, İradə Rəsuli. İki dastan. Bakı: Bakı Universiteti, s.3-58.
9. Oğuzname (Kazan Copy). (2015). Review-Text-Index-LikePrint. Editors Prof. Dr. Necati Demir, Assist. Assoc. Dr. Ozkan Aydogdu. Istanbul: Section Publications, 590 p.
10. Oğuznamələr. (1993). İşləyib çapa hazırlayanlar: K.V.Nərimanoğlu və F.Uğurlu. Bakı: Bakı Universiteti nəşriyyatı, 94 s.
11. Rəşidəddin, F. (1992). Oğuznamə. Fars dilindən tərcümə, ön söz və şərhlərin müəllifi R.M.Şükürovanındır. Bakı: Azərbaycan Dövlət N-PB, 72 s.
12. Rəşidəddin. (2003). Oğuznamə. Anadolu türkcəsindən Azərbaycan dilinə çevirən, ön söz və göstəricilərin müəllifi və biblioqrafiyanın tərtibçisi İ.M.Osmanlı. Bakı: Azərbaycan Milli Ensiklopediyası N-PB, 108 s.
13. Toğan, Z. (1972). Oğuz dastanı. Rəşidəddin Oğuznaməsi, tərcümə və təhlili. İstanbul.

14. Salar Baba, X. (1992). Oquz ve övlad ve etba ve bakı-ye etrak tarixi. Aşqabat: Türkmənistan, s.95-119.
15. Salar Baba, X. (2021). Oğuznamə. Türkmən dilindən Azərbaycan dilinə çevirən, ön sözün müəllifi və nəşrə hazırlayanı İ.M.Osmanlı. Bakı: AFPoliqrAF, 72 s.
16. Bukhari Khafiz-i, T. (1983). Sharaf-namaii shakhi (Kniga shakhskoi slavy). Per. s persids., vved., prim. i ukazateli M.A.Salakhetdinovoi. Chast- 1. Moskva: Nauka, 543 s.
17. Rashid-ad-Din, F. (1946-1960). Sbornik letopisei. T. 1-3. M. Leningrad: AN SSSR, 903 c.
18. Rashid ad-Din, F. (1987). Oguzname. Perevod s persids., komm., prim. i ukazateli R.M.Shukurovoi. Baku: Elm, 127 s.
19. Zhirmunskii, V. (1974). Tiurkskii geroicheskii epos. Leningrad: Nauka, 727 s.
20. Ögəl, B. (1995). Türk mifologiyası (2 cild). Ankara: Türk Tarix Qurumu Yayınları, c. 2, 610 s.
21. Ögəl, B. (1989). Türk mifologiyası (Mənbə və izahlı dastanlar) (2 cild). Ankara: Türk Tarix Qurumu Yayınları, c. 1, 644 səh.
22. Kitabi-Dədə Qorqud. (1988). Müqəddimə, tərtib və transkripsiya F.Zeynalov və S.Əlizadənindir. Bakı: Yazıçı, 265 s.
23. Sümər, F. (1992). Oğuzlar. Bakı: Yazıçı, 432 s.
24. Koroğlu, X. (1999). Oğuz qəhrəmanlıq eposu. Bakı: Yurd, 244 s.
25. Nərimanoğlu, K. (2004). Dastan, "Kitabi-Dədə Qorqud". Dədə Qorqud kitabı. Ensiklopedik lüğət. Bakı: Öndər Nəşriyyat, s.77-81.
26. Cəfərov, N. (2002). Azərbaycanşünaslığa giriş. Bakı: AzAtaM, 600 s.
27. Qafarlı, R. (2002). Mif, əfsanə, nağıl və epos (şifahi epik ənənədə janrlararası əlaqə). Bakı: ADPU nəşri, 758 s.
28. Cəlil, F. (2010). Türk və skandinav mifologiyasında yer alan teoqoniya anlayışının dastan yaradıcılığına transformasiyası. "Azərbaycan şifahi xalq yaradıcılığına dair tədqiqlər" jur. № 33, Bakı: Nurlan, s.66-71.
29. Bayat, F. (2004). Oğuznamə(lər). Dədə Qorqud kitabı. Ensiklopedik lüğət. Bakı: Öndər Nəşriyyat, s.255-274.
30. Əsgər, Ə. (2013). Oğuznamə yaradıcılığı. Bakı: Elm və təhsil, 340 s.
31. Khalil, A. (2004). O problematike pis-mennosti i zhanrogo sostava oguzskogo eposa (na materiale "Knigi Dede Korkuta"). Tiurkologicheskii sbornik. Vyp. II, Materialy mezhdunarodnoi tiurkologicheskoi konferentsii "Iazyki i literatura tiurkskikh narodov: istoriia i sovremennost". Elabuga, s.227-234.
32. Rzasoy, S. (2009). Oğuz mifologiyası (metod, struktur, rekonstuksiya). Bakı: Nurlan, 363 s.
33. Bayati, H.M. (2011). Cami-Cəm ayin. Azərbaycan türkcəsinə uyğunlaşdıran, nəşrə hazırlayan, ön sözün və göstəricilərin müəllifi İ.Osmanlı. Bakı: Mütərcim, 68 s.
34. Qaliboğlu, E. (2020). Yaradılış mifləri və Azərbaycan əfsanələri. Bakı: Elm və təhsil, 180 s.
35. Qafarov, R. (2010). Azərbaycan türklərinin mifologiyası (qaynaqları, təsnifatı, obrazları, genezisi, evolyusiyası və poetikası), (filologiya üzrə fəlsəfə doktoru dissertasiyasının avtoreferatı). Bakı, 59 s.

Göndərilib: 20.11.2022 Qəbul edilib: 08.01.2023

DOI: https://doi.org/10.36719/2706-6185/19/13-17

**Sevinc Akif qızı Qurbanova**
Gəncə Dövlət Universiteti
doktorant
sevincakifqizi@mail.ru

# ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN ŞUŞAYA ZƏNGİN TARİXİ ABİDƏ KİMİ QAYĞISI

**Xülasə**

Ümummilli lider Heydər Əliyev Azərbaycana rəhbərliyi zamanı Qarabağa çox böyük diqqət göstərirdi. Bugün bu siyasətin araşdırılması çox vacibdir. Məqalədə vurğulanılır ki, Şuşa şəhərində genişmiqyaslı quruculuq işlərinin aparılması və şəhərin inkişafı Heydər Əliyevin adı ilə bağlıdır. 1969-cu ildə Azərbaycana rəhbər seçiləndən sonra ulu öndər Şuşanı abadlaşdırmaq, şəhərin başına gətirilən müsibətlərin izlərini ləğv etmək, dağıdılmış, yandırılmış evlərin bərpasına nail olmaq, eyni zamanda, tarixi abidələri qoruyub saxlamaq və böyük bir muzeyə çevirmək üçün əhəmiyyətli işlər görmüşdür. 1970-ci illərdə ermənilər Dağlıq Qarabağ məsələsini yenidən ortaya atsalar da, onların bu istəklərinin qarşısı qətiyyətlə alınmışdı. Şuşa şəhərinin yüksəlişi Heydər Əliyev tərəfindən müəyyən edilmiş və Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla həyata keçirilmişdir.

***Açar sözlər:*** *Qarabağ tarixi, abidələr şəhəri, Şərqin Konservatoriyası, Şuşa ili, tarixi abidələr*

**Sevinj Akif Gurbanova**
Ganja State University
PhD student
sevincakifqizi@mail.ru

## National Lider Heydar Aliyev's care for Shusha as rich historical value

**Abstract**

National leader Heydar Aliyev paid great attention to Karabakh during his leadership of Azerbaijan. The large-scale construction works in Shusha and the development of the city are connected with the name of Heydar Aliyev. After being elected as the leader of Azerbaijan in 1969, the great leader has done important work to improve Shusha, cancel the traces of the calamities that befell the city, restore destroyed and burned houses, and at the same time preserve historical monuments and turn them into a large museum. Although the Armenians raised the Nagorno-Karabakh issue again in the 1970s, their wishes were resolutely prevented. The rise of the city of Shusha was determined by Heydar Aliyev and was successfully implemented under the leadership of President Ilham Aliyev.

***Keywords:*** *Karabakh history, city of monuments, Conservatory of the East, Shusha year, historical monuments*

## Giriş

Heydər Əliyevin fəaliyyətinin mühüm əhəmiyyət daşıyan istiqamətlərindən biri də məhz Qarabağda milli ruhun oyadılması olmuşdur. Ümummilli Lider bu istiqamətdə sistemli və məqsədyönlü şəkildə fəaliyyət göstərmişdi. İlk öncə onu vurğulayaq ki, Qarabağ tarixini, mədəniyyətini, incəsənətini, iqtisadi inkişafını mükəmməl bilən Heydər Əliyev bu məsələyə çox həssaslıqla yanaşmışdır. Azərbaycanın qədim mədəniyyət mərkəzi kimi Şuşanın tarixi keçmişini yaxşı bilən Heydər Əliyev bu şəhərin inkişafına çox böyük qayğı göstərirdi. Ümummilli Lider Şuşaya zəngin tarixi abidə, Azərbaycan xalqının qəhrəmanlıq rəmzi kimi baxırdı. Heydər Əliyevin bilavasitə təşəbbüsü və rəhbərliyi ilə Şuşa şəhərinin inkişaf etdirilməsi məqsədilə 1970-ci illərin ikinci yarısında bir neçə xüsusi qərar qəbul edildi. Həmin il qərarlara uyğun olaraq şəhərin

keçmişdə tikilmiş binaları, tarixi abidələri bərpa edildi, yeni çoxmərtəbəli yaşayış binaları, böyük mehmanxana kompleksləri, ayrı-ayrı inzibati binalar tikildi. Bununla yanaşı, Şuşanın statusu qaldırılaraq ümumittifaq səviyyəli kurort şəhərinə çevrildi. Həmin qərarların yerinə yetirilməsinin böyük tarixi əhəmiyyəti var idi (Həsənov, 1997: 80).

Xüsusilə vurğulamaq lazımdır ki, həmin illərdə şəhərdə azərbaycanlılar üçün əlavə iş yerləri açılır, həyat səviyyəsi yaxşılaşır, azərbaycanlıların milli ruhu güclənirdi. Heydər Əliyevin Dağlıq Qarabağa göstərdiyi diqqət və qayğısı daha da artmış və geniş quruculuq işləri vüsət almışdı. Belə ki, görkəmli Azərbaycan şairi Molla Pənah Vaqifin məzarı üstündə 1980-1981-ci illərdə məqbərə tikilmiş və 1982-ci il yanvarın 14-də yağan güclü qarın altında Şuşada şairin məqbərəsini böyük təntənə ilə açmışdı (Məmmədov, 2008: 274-276). Onun M.P.Vaqifə bu münasibəti bir tərəfdən, milli ədəbiyyata sevgisindən irəli gəlirdisə, digər tərəfdən, diyarın tarixini, əhalisinin etnik mənsubiyyətini bir daha göstərməklə bağlı idi. Əslində, bu məqbərə, eyni zamanda, gözəl memarlıq abidəsi idi. Heydər Əliyev abidənin tikintisini böyük, əlamətdar hadisə hesab edirdi. Ona görə də açılışa gedərkən ailəsi ilə birlikdə yanında elm, mədəniyyət və incəsənət adamlarının böyük bir qrupunu da aparmışdı. Bu addımı ilə Ümummilli Lider ziyalıları Dağlıq Qarabağa xüsusi diqqət yetirməyə istiqamətləndirir, vilayətə tez-tez səfərə gəlmələrini tövsiyə edirdi.

Onu da qeyd etmək lazımdır ki, Ümummilli Liderin M.P.Vaqifin məqbərəsinin açılışında söylədiyi nitq, onun Dağlıq Qarabağa qayğısının göstəricisi idi. Bununla yanaşı, səfər zamanı Heydər Əliyev Şuşada "Poeziya evi"ni açaraq, Vaqif poeziya günlərində iştirak etdi. Bununla yanaşı, Ulu Öndər Üzeyir bəy Hacıbəylinin və Bülbülün Şuşadakı ev-muzeylərindəki eksponatlarla tanış olmuş və onların qorunmasına dair tövsiyələrini vermişdi. Bu tarixi səfər zamanı Şuşadakı abidələrin bərpa işləri ilə maraqlanan Heydər Əliyev müvafiq göstərişlər verərək işlərin davam etdirilməsinə dair bir sıra təkliflərini də söyləmişdi. Ümummilli Liderin, eyni zamanda, Şuşa məscidinə getməsi bir tərəfdən, onun dini dəyərlərə olan ehtiramının və dərin bağlılığının göstəricisi idisə, digər tərəfdən azərbaycanlı əhalinin milli və dini dəyərlərə sahib çıxmalarının vacibliyinə olan nümunə idi. Ulu Öndər erməni millətçilərinin ona müxtəlif böhtanlar atdığı bir zamanda məscidə getməklə yerli əhaliyə dini inanclarını qorumağı da tövsiyə etmişdi. Ümummilli Liderin həmin gün Şuşada şəhər ictimaiyyəti ilə keçirilən görüşləri hər bir şuşalının yaddaşında unudulmaz iz qoymuş və bu gün də xatirələrdə yaşayır. 1982-ci il iyulun 29-dan - avqustun 2-dək Qarabağa bir il içərisində ikinci dəfə səfər edən Heydər Əliyevin bilavasitə iştirakı ilə Şuşada şairə Xurşidbanu Natəvanın abidəsinin açılışı oldu (Avalov, 2014: 250). Ümummilli Liderin Azərbaycana rəhbərlik etdiyi 1969-1982-ci illərdə Şuşa şəhərinin və Dağlıq Qarabağın azərbaycanlılar yaşayan digər məntəqələrinin siması xeyli dəyişdi. Heydər Əliyevin göstərişi ilə Xankəndidə Pedaqoji İnstitut açıldı və orada Azərbaycan bölməsi yaradıldı. Bu, azərbaycanlı ziyalıların daimi iş yeri ilə təmin olunmasına, Qarabağda yeni elmi-mədəni mühitin formalaşmasına, azərbaycanlı əhalinin ali təhsil almasına və doğma yerlərə daha sıx bağlanmasına əlverişli şərait yaratmışdı.

Ümummilli lider Heydər Əliyev Şuşanın Azərbaycan üçün nə dərəcədə əhəmiyyətli olduğunu bildirərək deyib: "*Şuşa Azərbaycanın ən əziz və böyük tarixi olan bir guşəsidir. Şuşanı yaradanlar, Şuşa şəhərini quranlar, Şuşa qalasını tikənlər Azərbaycan torpağının sahibləri olublar və Qarabağda Azərbaycan torpağının daim qorunması, saxlanması üçün Şuşa şəhərini, qalasını yaradıblar. Bu, Azərbaycan xalqının, əcdadlarımızın yaratdığı böyük abidədir, təkcə şəhər deyil, böyük bir tarixi abidədir. Bu şəhərdə, onun ətrafında Azərbaycan xalqının bir neçə əsrlik tarixə malik böyük mədəniyyəti, mədəni irsi, qəhrəmanlıq nümunələri yaranıbdır. Şuşa təkcə şuşalılar üçün yox, bütün azərbaycanlılar üçün, vətənini, millətini sevən hər bir vətəndaşımız üçün əziz bir şəhərdir, əziz bir torpaqdır, əziz bir qaladır, əziz bir abidədir*" (4).

Ümummilli Lider Şuşaya zəngin tarixi abidə, Azərbaycan xalqının qəhrəmanlıq rəmzi kimi baxırdı. Heydər Əliyevin bilavasitə təşəbbüsü və rəhbərliyi ilə Şuşa şəhərinin inkişaf etdirilməsi məqsədilə 1970-ci illərin ikinci yarısında bir neçə xüsusi qərar qəbul edildi. Həmin il qərarlara uyğun olaraq şəhərin keçmişdə tikilmiş binaları, tarixi abidələri bərpa edildi, yeni çoxmərtəbəli yaşayış binaları, böyük mehmanxana kompleksləri, ayrı-ayrı inzibati binalar tikildi. Bununla yanaşı,

Şuşanın statusu qaldırılaraq ümumittifaq səviyyəli kurort şəhərinə çevrildi. Həmin qərarların yerinə yetirilməsinin böyük tarixi əhəmiyyəti var idi (Hüseynova, 2008: 672).

Sovet dövründə görkəmli dövlət xadimi Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi zamanda (1969-1982) Qarabağa çox böyük diqqət və qayğı göstərmiş, eləcə də erməni iddiaları hər zaman iflasa uğramışdı (Hüseynova, 2004: 376). Ümummilli lider Heydər Əliyevin fəaliyyətinin mühüm əhəmiyyət daşıyan istiqamətlərindən biri məhz Qarabağda milli ruhun oyadılması olmuşdur. Heydər Əliyev Şuşaya zəngin tarixi abidə, Azərbaycan xalqının qəhrəmanlıq rəmzi kimi baxırdı. Heydər Əliyev XX əsrin 70-ci illərində Şuşa şəhərində Azərbaycan xalqının tarixi abidələrinin qorunmasına xüsusi qayğı göstərilməsi barədə göstəriş vermişdi. Heydər Əliyev eyni zamanda, Şuşada aparılan tikinti-quruculuq işləri ilə də yaxından maraqlanmış, Azərbaycan poeziyasının klassikləri M.P.Vaqifin və Xurşidbanu Natəvanın yaşayıb yaratdığı yerlərlə tanış olmuşdu.

XX əsrin 70-ci illərində və 80-ci illərin birinci yarısında Ümummilli lider Heydər Əliyevin sayəsində DQMV-nin iqtisadi və mədəni tərəqqisinə diqqət artırılmış, Şuşa şəhərinin inkişafı üçün bir neçə xüsusi qərar qəbul olunmuş, şəhərin tarixi abidələri bərpa olunmuş, yeni muzeylər yaradılmış, çoxmərtəbəli yaşayış və inzibati binalar tikilmiş, Şuşa şəhəri Ümumittifaq səviyyəli kurort şəhərinə çevrilmişdi. Azərbaycan KP MK və Azərbaycan SSR Nazirlər Soveti 4 noyabr 1976-cı ildə "Şuşa şəhərində kurort kompleksini daha da inkişaf etdirmək tədbirləri haqqında" qərar qəbul etmişdi. Həmin qərara uyğun olaraq, 2000-ci ilədək şəhərin "Baş planı" layihələndirilmişdi (Mehdiyev, 2006: 117). Azərbaycan KP MK-nın, Azərbaycan SSR Nazirlər Sovetinin 10 avqust 1977-ci il tarixli qərarı ilə Şuşa şəhəri tarixi-memarlıq qoruğu elan edilmiş, Dövlət Tarixi-Memarlıq Qoruğu İdarəsi yaradılmışdı. Heydər Əliyevin bilavasitə təşəbbüsü və rəhbərliyi ilə Şuşa şəhərinin inkişaf etdirilməsi məqsədilə 1970-ci illərin ikinci yarısında bir neçə xüsusi qərar qəbul edildi. Həmin il qərarlara uyğun olaraq şəhərin keçmişdə tikilmiş binaları, tarixi abidələri bərpa edildi, yeni çoxmərtəbəli yaşayış binaları, böyük mehmanxana kompleksləri, ayrı-ayrı inzibati binalar tikildi. Bununla yanaşı, Şuşanın statusu qaldırılaraq ümumittifaq səviyyəli kurort şəhərinə çevrildi. Həmin qərarların yerinə yetirilməsinin böyük tarixi əhəmiyyəti var idi. Şəhərdə azərbaycanlılar üçün əlavə iş yerləri açılır, həyat səviyyəsi yaxşılaşır, Azərbaycanlıların milli ruhu güclənirdi. Keçmiş SSRİ-nin müxtəlif yerlərindən Şuşaya istirahətə gələnlər, eyni zamanda, Azərbaycanın tarixi, mədəniyyəti və incəsənəti ilə yaxından tanış olurdular.

1977-ci ildə ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə "Şuşa şəhərinin tarixi hissəsini tarix-memarlıq qoruğu elan etmək haqqında" qərar qəbul edilmişdir (8). Həmin qərar nəticəsində Şuşada abidələrin qorunması, görkəmli mədəniyyət və incəsənət xadimlərinin xatirələrinin əbədiləşdirilməsi istiqamətində əhəmiyyətli addımlar atılmışdır. Şuşa ictimaiyyəti ilə keçirdiyi görüşdə Heydər Əliyev tövsiyə edərək demişdi: "Şuşa abidələr şəhəridir. Diyarın zəngin tarixi ilə bağlı olan hər şeyi qorumaq, qədim tikintiləri bərpa etmək lazımdır". Həmin illərdə ümummilli lider Heydər Əliyevin Şuşaya göstərdiyi diqqət və qayğı daha da artmış və geniş quruculuq işləri vüsət almışdı. Belə ki, görkəmli Azərbaycan şairi Molla Pənah Vaqifin məzarı üstündə 1980-1981-ci illərdə abidə, məqbərə tikilmiş və 1982-ci il yanvarın 14-də yağan güclü qarın altında Heydər Əliyev Şuşada şairin məqbərəsini böyük təntənə ilə açmışdı. Onun M.P.Vaqifə bu münasibəti bir tərəfdən milli ədəbiyyata sevgisindən irəli gəlirdisə, digər tərəfdən diyarın tarixini, əhalisinin etnik mənsubiyyətini bir daha göstərməklə bağlı idi. Əslində, bu məqbərə, eyni zamanda, gözəl memarlıq abidəsi idi. Heydər Əliyev abidənin tikintisini böyük, əlamətdar hadisə hesab edirdi. Ümummilli Liderin M.P.Vaqifin məqbərəsinin açılışında söylədiyi nitq onun Qarabağa qayğısının göstəricisi idi. Bununla yanaşı, səfər zamanı Heydər Əliyev Şuşada Poeziya evini açaraq, Vaqif Poeziya Günlərində iştirak etdi.

Bununla yanaşı, Heydər Əliyev Üzeyir bəy Hacıbəylinin və Bülbülün Şuşadakı ev-muzeylərindəki eksponatlarla tanış olmuş və onların qorunmasına dair tövsiyələrini vermişdi. Bu tarixi səfər zamanı Şuşadakı abidələrin bərpa işləri ilə maraqlanan Heydər Əliyev müvafiq göstərişlər verərək işlərin davam etdirilməsinə dair bir sıra təkliflərini də söyləmişdi. Ümummilli Liderin, eyni zamanda, Şuşa məscidinə getməsi bir tərəfdən, onun dini dəyərlərə olan ehtiramının

və dərin bağlılığının göstəricisi idisə, digər tərəfdən azərbaycanlı əhalinin milli və dini dəyərlərə sahib çıxmalarının vacibliyinə olan nümunə idi. Heydər Əliyev erməni millətçilərinin ona müxtəlif böhtanlar atdığı bir zamanda məscidə getməklə yerli əhaliyə dini inanclarını qorumağı da tövsiyə etmişdi (9).

Təkcə bir məqamı xatırladaq ki, 1982-ci il iyul ayının sonları, avqustun əvvəllərində Azərbaycan KP MK-nın birinci katibi olmuş Heydər Əliyevin Dağlıq Qarabağ Muxtar Vilayətinə səfəri zamanı bir çox mühüm hadisələr baş vermişdi 1982-ci il iyulun 29-dan avqustun 2-dək Qarabağa bir il içərisində ikinci dəfə səfər edən Heydər Əliyevin göstərişi ilə o dövrdə Dağlıq Qarabağda, xüsusilə Şuşada yaşamış digər elm və mədəniyyət xadimlərinin də xatirəsi əbədiləşdirildi. 1982-ci il avqustun 2-də Şuşada şairə Xurşidbanu Natəvana abidə qoyuldu. Qeyd etmək lazımdır ki, bir ildə iki dəfə Şuşaya gedərkən ailəsi ilə birlikdə yanında elm, mədəniyyət və incəsənət adamlarının böyük bir qrupunu da aparmışdı. Bu addımı ilə Ümummilli Lider ziyalıları Qarabağa xüsusi diqqət yetirməyə istiqamətləndirir, Şuşaya tez-tez səfərə gəlmələrini tövsiyə edirdi (Fətullayev, 1970: 12).

Şuşanın abidələr şəhəri olduğunu söyləyən ümummilli lider Heydər Əliyev onun Azərbaycan üçün müstəsna əhəmiyyətini yüksək qiymətləndirərək bildirmişdir ki, "Şuşasız Qarabağ, Qarabağsız isə Azərbaycan yoxdur".

Bir vaxtlar "Kiçik Paris", "Qafqazın sənət məbədi", "Azərbaycan musiqisinin beşiyi" və "Şərqin konservatoriyası" adlandırılan, Azərbaycanın ictimai-siyasi həyatında mühüm xidmətləri olan bir sıra görkəmli xadimlərin vətəni, eləcə də tarixi mədəniyyət mərkəzi və Qarabağın baş tacı olan Şuşa şəhəri artıq işğaldan azad edilmişdir. Ümummilli lider Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirərək Azərbaycanın milli və dövlətçilik maraqlarını daim üstün tutan Prezident, Ali Baş Komandan İlham Əliyev 2020-ci il noyabrın 8-də Şuşa şəhərinin azad olunması münasibətilə xalqa müraciətində demişdir: "İyirmi səkkiz il yarım işğal altında olan Şuşa azad edildi! Şuşa indi azaddır! Biz Şuşaya qayıtmışıq! Biz bu tarixi Qələbəni döyüş meydanında qazandıq. 2020-ci il noyabrın 8-i Azərbaycan tarixində əbədi qalacaqdır. Bu tarix əbədi yaşayacaq. Bu, bizim şanlı Qələbəmizin, Zəfərimizin günüdür!" (Axundov, 1991: 450).

Bu baxımdan, strateji əhəmiyyətli Şuşanın Azərbaycan tarixində xüsusi yerinin olduğunu vurğulayan Azərbaycan Prezidenti bildirmişdir: *"Bu, bizim qədim, tarixi şəhərimizdir. Əsrlərboyu azərbaycanlılar Şuşada yaşayıb, qurub, yaradıb. Şuşa nəinki Azərbaycanın, bütün Qafqazın incisidir. Ancaq mənfur düşmən Şuşanı işğal altında saxlamaqla bizim mədəni irsimizə böyük zərbə vurdu, bizim tarixi abidələrimizi dağıtdı, bizim məscidlərimizi dağıtdı, təhqir etdi. Biz indi Şuşaya qayıtmışıq. Bütün tarixi abidələrimizi bərpa edəcəyik"* (Mahmudov, 2002: 322).

2021-ci il yanvarın 14-də Şuşaya səfər edən Azərbaycan Prezidenti İlham Əliyev son dəfə 39 il bundan əvvəl Ümummilli lider Heydər Əliyevin şəhərə tarixi və unudulmaz səfəri zaman gəldiyini diqqətə çatdıraraq bildirdi ki, qəhrəman Azərbaycan Ordusu mükəmməl hərbi əməliyyat keçirərək cəsarət, rəşadət, qəhrəmanlıq, güc, milli ruh nümayiş etdirərək Şuşanı işğalçılardan azad etmişlər və uzun fasilədən sonra noyabrın 8-də Şuşada Azərbaycan bayrağı qaldırılmışdır: Bu gün isə Azərbaycan gələcəyinə hesablanmış bu vəsiyyətləri Prezident İlham Əliyev reallaşdırmaqdadır. 44 günlük Vətən müharibəsi zamanı xüsusi əməliyyatla Şuşa şəhərinin azad olunması, Prezident İlham Əliyevin imzaladığı Sərəncamla Şuşanın Azərbaycan mədəniyyətinin paytaxtı elan edilməsi, 270 illik tarixi olan Şuşa şəhərinin yenidən bərpa edilməsi, dirçəldilməsi, əvvəlki şöhrətinin qaytarılması Ümummilli Liderimizin Şuşa ilə bağlı vəsiyyətinin tam həyata keçirildiyini isbatlayır. Eləcə də 44 günlük Vətən müharibəsindən sonra Azərbaycan, Rusiya və Ermənistan arasında 2020-ci il 10 noyabr tarixində imzalanmış üçtərəfli bəyanatın 9-cu bəndi və 2021-ci il 11 yanvar tarixində Moskvada imzalanmış 4 bəndlik bəyanat Zəngəzur dəhlizinin reallaşması üçün hüquqi zəmin yaradır. Bu gün Ümummilli Liderimizin arzuladığı bir Azərbaycan var, dövlətçilik əmin əllərdə yaşayır, Qarabağ, onun tacı Şuşa tarixi sahibinə qovuşub, doğma yurdumuza 30 ildən sonra yenidən həyat qayıdır. Ulu Öndərin bu gün ruhu şaddır ki, Azərbaycanın ərazi bütövlüyü bərpa edilib, şanlı bayrağımız Qarabağ torpağında dalğalanır. Onun dediyi kimi, Şuşasız Qarabağ, Qarabağsız Azərbaycan yoxdur!

## Nəticə

Şuşanın Azərbaycan xalqı üçün tarixi əhəmiyyətini, yüksək mədəni- mənəvi dəyərini nəzərə alaraq 2022-ci ilin "Şuşa İli" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidenti 5 yanvar 2022-ci ildə Sərəncam imzalamışdır. Təməli 1752-ci ildə Qarabağ xanı Pənahəli xan tərəfindən qoyulan Şuşa şəhərinin 270 illiyi müxtəlif səpkili tədbirlərlə qeyd olunur. Azərbaycan Respublikasının Nazirlər Kabineti "Şuşa İli" ilə bağlı tədbirlər planının həyata keçirilməsini təmin edir. Azərbaycanın mədəniyyət paytaxtı elan edilən Şuşada bu gün şəhərin əsl tarixi simasının bərpası yönündə nəhəng layihələr gerçəkləşdirilir. Şuşa sürətlə dirçələrək əvvəlki dolğun mədəni həyatına qovuşmaq yolundadır. Beynəlxalq Türk Mədəniyyəti Təşkilatına (TÜRKSOY) üzv ölkələrin Mədəniyyət Nazirlərinin Daimi Şurasının 31 mart 2022-ci ildə Türkiyənin Bursa şəhərində keçirilən iclasında Şuşa şəhəri 2023-cü il üçün "Türk dünyasının mədəniyyət paytaxtı" seçilib.

## Ədəbiyyat


1. Həsənov, Ə. (1997). Azərbaycan və ATƏT: Ermənistan-Azərbaycan münaqişəsi və Dağlıq Qarabağ problemi ümumavropa təhlükəsizliyi fonunda. Bakı: İşıq, 80 s.
2. Məmmədov, N. (2008). 1970-1985-ci illərdə Şuşa şəhərində muzeylərin inkişafı. AMEA, Milli Azərbaycan Tarixi Muzeyi. Bakı, s.274-282.
3. Avalov, E. (2014). Qarabağ xanlığının paytaxtı Şuşa. Azərbaycan paytaxtları: Elmi-praktiki konfrans. İçərişəhər Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi. Bakı: Elm və təhsil, s.241-253.
4. https://ikisahil.az/post/234054-heyder-eliyev-ideyalari-zengezur-ve-shusha-vesiyyetleri-bize-ne-deyir
5. Hüseynova, İ. (2008). Heydər Əliyev və Qafqazda sülh prosesi. Bakı: Çaşıoğlu, 672 s.
6. Hüseynova, İ. (2004). Müstəqil Azərbaycan dövlətinin qurucusu. Bakı: Təhsil, 472 s.
7. Mehdiyev, R. (2006). Milli məfkurə, dövlətçilik, müstəqillik yolu ilə: məqalələr, çıxışlar, müsahibələr: 2 cilddə. Bakı: XXI əsr YNE, 624-672 s.
8. http://old.xalqqazeti.com/az/news/politics/33139
9. Şuşada Bülbülün ev-muzeyinin bərpadan sonra açılışı olub: Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva açılışda iştirak etmələri haqqında. (2021). Azərbaycan, 31 avqust, s.3-4.
10. Fətullayev, Ş. (1970). Şuşa abidələri. Bakı: Gənclik, 16 s.
11. Axundov, N. (1991). Qarabağnamələr tərt. edən və çapa haz. elmi red. Akif Fərzəliyev. (1991). Bakı: Yazıçı, 450 s.
12. Mahmudov, Y. (2002). Azərbaycan tarixində Heydər Əliyev şəxsiyyəti. Bakı: Təhsil, 322 s.


Göndərilib: 01.12.2022 Qəbul edilib: 10.01.2023

DOI: https://doi.org/10.36719/2706-6185/19/18-21

**Şahanə Malik qızı Löymanova**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
magistrant
loymanovas@gmail.com

# BOŞANMANIN YENİ NƏSLİN KEYFİYYƏTİNƏ VURDUĞU ZƏRƏRLƏR

## Xülasə

Uşaqlar gələcəyimizin gəncləri, yetişkin nümayəndələri olaraq cəmiyyətimizin formalaşmasında böyük əhəmiyyət kəsb edirlər. Buna görə də uşaqların sağlam mühitdə böyüməsi çox mühüm məsələ kimi ön plana gətirilib.

Ailədə yaşanan problemlərdən sonra, xüsusi ilə də boşanmadan sonra uşaqlarda travmatik bir vəziyyətlər yaranır. Valideynləri boşanmış uşaqların boşanmadan sonra sosial və psixoloji baxımdan bir çox mənfi təsirlərə məruz qaldığı göstərilmişdir. Boşanmış ailələrin övladlarının yaşadığı sosial problemlər, özünə hörmətin az olması, depressiya, sosial introversiya, aqressiv davranışlar təhlil edilmişdir.

***Açar sözlər:*** *ailə, uşaq, boşanma, boşanmanın uşaqlara təsiri, uşaq psixologiyası*

**Shahana Malik Loymanova**
Azerbaijan State Pedagogical University
master student
loymanovas@gmail.com

## Damages caused by divorce to the quality of the new generation

## Abstract

Children are of great importance in the formation of our society as the young people of our future and adult representatives. Therefore, the growth of children in a healthy environment has been brought to the fore as a very important issue.

After the problems in the family, especially after the divorce, traumatic situations arise in the children. It has been shown that children whose parents are divorced suffer many negative effects from a social and psychological point of view after the divorce. Social problems experienced by children of divorced families, low self-esteem, depression, social introversion, aggressive behavior were analyzed.

***Keywords:*** *family, child, divorce, impact of divorce on children, child psychology*

## Giriş

Cəmiyyətin təməl daşı olan ailə ən köklü və universal qurumlardan biridir. Ailə ən səmimi münasibət, nəslin davamı, sevgi, etibar, iqtisadi, cinsi və s. kimi bir çox ehtiyacların ödənildiyi əsas sosial qrupdur. Ailənin möhkəm olması fərdlər arasında olan sevgi, sədaqət, inam, hörmət və digər dəyərlərdən asılıdır. Ailəni saxlayan dəyərlərin itirilməsi, azalması bir çox böhranla və hətta boşanmalara səbəb olur.

Boşanma cəmiyyətə psixoloji, sosial, iqtisadi və s. kimi müxtəlif aspektlərdən təsir etdiyinə görə çoxşaxəli və mürəkkəb məsələdir. Boşanma təkcə boşanmış tərəflərə deyil, həm də ailədə olan uşaqlara və ailənin digər fərdlərinə də təsir edir.

Boşanmadan sonra boşanan şəxslərin qarşılaşdıqları çətinliklər, demoqrafik, sosial, psixoloji və iqtisadi dəyişənlərə görə dəyişir. Bununla yanaşı boşanmadan sonra qarşılaşılan çətinliklər cins, yaş, təhsil səviyyəsi, iş, yaşadığı yer, nikahın növü və müddəti, övlad sahibi olmaq, uşaqların sayı və yaşı, qəyyumluq statusu, boşanmadan sonra yaşayış yeri, boşanmadan sonra ümumi həyat, psixaloji vəziyyət, aliment alma, boşanmadan əvvəl və sonrakı maddi vəziyyət kimi amillər ilə də bilavasitə əlaqəlidir.

Valideynlər və uşaqlar arasında ahəngdar münasibət indiyədək bir çox araşdırmaların mövzusu olub və son illərdə aparılan elmi araşdırmalarda boşanmaların təkcə valideynlərə deyil, həm də valideyn-övlad münasibətlərinə zərər verdiyini göstərilib. Boşanmadan valideynlərdən daha çox övladlar təsirlənirlər.

Uşaq öz şəxsi kimliyini, sosial və mədəni dəyərlərini ailə vasitəsilə öyrənir. Yetkinlik yaşına çatdıqda, ağlında yaşadığı ailə mühitini və ailə münasibətlərini əks etdirən ailə modeli yaradır. Gələcəkdə quracaqları ailə və istədikləri həyat yoldaşı məhz öz ailəsinə əsasən olur. Bu səbəbdən uşaqlara həm ailə daxilində, həm də sosial mühitdə sağlam münasibətlər qurma şansı verilməlidir. Uşaq ailədə gördüklərini, başqalarına necə rəftar edəcəyini, problemlə qarşılaşdıqda necə davranacağını şüuraltı mənimsəyir və onu bu şəkildə əks etdirir. Sosial mədəniyyət elementləri ailə daxilində uşağa ötürülür. Beləliklə, uşaq mədəniyyətin ən kiçik daşıyıcısı kimi cəmiyyətdə öz yerini tutur (1).

Bizim cəmiyyətimizdə bir çox valideynlər aralarındakı gərginliyin, hirsin və qəzəbin öhdəsindən gələ bilmir və bunları övladlarına əks etdirirlər. Çox az valideynlər övladları üçün münasibətlərini mədəni çərçivədə davam etdirə bilirlər. Bəzi valideynlər isə özlərini günahkar hiss etdikləri üçün uşaqlara lazım olduğundan fəqrli davranırlar. Şəxsi münaqişə zəminində boşanan və övladlarını tək böyüdən valideynlər uşaqdakı mənəvi boşluğu maddi hədiyyələrlə doldurmağa çalışırlar. Ailənin parçalanmasını maddi hədiyyələrlə doldurmağa çalışan valideynlər övladlarını maddiyyata düşkün olmasına səbəb olurlar, həmçinin paylaşmağı öyrənmələrinə mane olurlar. Bu da öz növbəsində uşaqların sosial münasibətlərinə təsir göstərir.

Boşanan ailələrin uşaqlarının analarının yanında qalması oğlanların ata modelindən uzaqlaşmasına səbəb olur. Ananın ata rolunu öz üzərinə götürməsi və uşaqlar üzərində nəzarət qurması oğlanların daha aqressiv davranmasına səbəb olur. Aparılan araşdırmalar göstərir ki, boşanmış ailələrin oğulları qızlarına nisbətən daha çox sosial uyğunlaşma problemi yaşayırlar. Oğlanlara nisbətən qızlara daha çox sosial dəstək göstərildiyi üçün qızlarda sosial adaptasiya daha tez olur.

Bundan əlavə, boşandıqdan sonra həyat yoldaşına qarşı qəzəbindən qurtula bilməyən bəzi valideynlər övladından həyat yoldaşlarına qarşı istifadə edirlər. Bu tip boşanmış valideynlər davamlı olaraq digər valideyni təhqir edir, günahlandırır, özlərini qurban kimi təqdim edirlər. Boşanma səbəbi ilə onsuz da sarsılan uşaq bu hadisələrdən daha da çaşqın olur, ağlı qarışır və psixalogiyasına mənfi təsir göstərir. Bütün bunlarla yanaşı, xüsusilə valideynlərin qəyyumluqla bağlı münaqişəsi də uşaqların inkişafına mənfi təsir göstərir.

Valideynlər arasında olan münaqişə övladlarda depressiya, davamlı gərginlik, sosial introversiya və aqressiv davranış kimi psixaloji pozuntular ilə nəticələnə bilər. Amato və Ketihə (1991) görə, boşanma boşanmış ailənin övladında günahkarlıq, tərk edilmək, istənməmək və sevilməmək kimi bir çox duyğuları yaşamasına səbəb ola bilər. Valideynlərlə münasibətləri məhdudlaşdırmaq uşağın psixi xüsusiyyətlərinə mənfi təsir göstərir. Məsələn, həmin uşaqlarda müstəqil ola bilməmək, qərar qəbul etməkdə, dostluq qurmaqda çətinlik, səhv etmək qorxusu və s. kimi hallar müşahidə olunur. Bir tərəfdən bütün bu problemlərin öhdəsindən gəlməyə çalışan uşaq, digər tərəfdən də valideynlərinin bir gün birləşəcəyini xəyal edir. Valideynlərin ziddiyyətli davranışları, uşaqlar pis olmasın deyə ümid dolu çıxışları, xüsusi hallar istisna olmaqla, tez-tez bir araya gəlməsi uşağı çaşdırır. Uşaq neçə yaşında olsa da, bir gün valideynlərinin barışacağını, yenidən brilikdə olacaqlarını xəyal etməkdən əl çəkmir. Valideynlərin mövzu ilə bağlı qısa, aydın və qəti şəkildə məsələni izah edilməlidir ki, onların bir araya gəlmə ehtimalı yoxdur.

Ədəbiyyatdakı məlumatları tədqiq etdikdə, boşanmış ailələrin uşaqları narahatlıq, qəzəb, tənhalıq, həyatdan məmnun olmama kimi psixoloji dəyişkənliklər görünür. boşanma prosesində bu uşaqlarda. Belə hallarda sosial introversiya, sosial problemlər, düşüncə problemləri, aqressiv davranışlar, somatik şikayətlər də öz əksini tapır.

Boşanmanın uşaqlara təsirinə dair araşdırmalarda onlarda qəzəb, aqressiya, depressiya, cinayətkarlıq, yuxu pozğunluğu, qidalanma pozğunluğu və antisosyal davranışlar müşahidə olunduğu qeyd olunur. Son illərdə aparılan araşdırmalar da valideynləri boşanmış uşaqlarda psixi pozğunluq

yüksək səviyyədə olduğunu göstərir. Bu psixi uyğunsuzluqların qəzəb, depressiya, ruhi depressiya, məktəbdə uğursuzluq, hirs, qorxu, özünə güvənməmək, aqressiv davranış, qaydaları pozma kimi davranış pozğunluqlarından ibarət olduğu bildirilmişdir.

Valideynlər yaşadıqları qarşıdurmada uşağın günahlandırarsa uşaq günahkarlıq hissinin öhdəsindən gələ bilməyəcək və beləlik uşaq depressiyaya girə bilər (Öztürk, 2008, s.99). Ancaq insanın özünü pis hiss etdiyi hər anı depressiya adlandırmaq olmaz. Zaman zaman hər kəsin yuxu problemləri ola bilər, ümidsizliyə düşə, özünü pis hiss edə, ağlaya və ya ictimai fəaliyyətlə məşğul olmaqdan çəkinə bilər. Bu hallar depressiyanın diaqnostik meyarlarına daxil edilsə belə, bu vəziyyət müəyyən bir müddəti tamamlamadıqca, müəyyən bir intensivliyə malik olmadıqca və gündəlik həyata yüksək səviyyədə təsir etmədikcə depressiya diaqnozu qoyula bilməz.

Yetkinlik dövründə olanlarda və uşaqlarda depressiya əlamətlərində böyük fərq olmasa da, uşaqlarda diaqnoz qoymaq daha çətindir (Nalbantoglu, 2016, s.256). Uşaqlarda görülə bilən depressiya əlamətləri həddindən artıq aktivlik və ya həddindən artıq sakitlik, məktəb müvəffəqiyyətinin azalması, özünə güvənin azalması, dostluq əlaqələrinin azalması ola bilər (Yörükoğlu, 2000).

Depressiya diaqnozu qoyulmuş uşaqlarda ciddi disfunksiya və intihara cəhd və maddə asılılığı kimi digər psixi pozğunluqlar müşahidə olunduğundan, yetkinlik yaşına qədər davam etməməsi üçün bu vəziyyəti müalicə etmək böyük əhəmiyyət kəsb edir. Depressiv simptomlar digər tibbi və nevroloji pozğunluqlara, xüsusən də psixiatrik xəstəliklərə səbəb ola bilər. Depressiya, insanın gün ərzində özünü bədbəxt, narahat və kədərli hiss etdiyi anormal emosional vəziyyətə malik olduğu əlamətlərin bütünüdür. Ana ilə uşaq arasında sağlam bağ, münasibət olmadıqda uşağın ruhi problemlərini tetikləyə bilcəyi müşahidə edilmişdir. Valideynlərin uzun müddət evdən kənarda qalması uşaqlarda narahatlıqların, davranış pozğunluğunun, sosail münasibətlərdə çətinliklər kimi problemlərə əhəmiyyətli dərəcədə təsir etdiyi ortaya çıxmışdır.

Davranış problemləri valideynləri arasında tez-tez münaqişələrə məruz qalan uşaqlarda daha çox rast gəlinir. Valideynlərinin ayrılığının öhdəsindən gələ bilməyən uşaqlar hirslərini istənilən sosial mühitdə aqressiv davranışlar, qışqırmaq, vurmaq, incitmək, dava-dalaşa girməklə göstərə bilərlər. Ailə problemləri, depressiya, narahatlıq, davranış problemləri, aşağı sosial-iqtisadi status və boşanmış ailə övladı olmaq arasında güclü əlaqə var. Valideynlərdən istədiyi və gözlədiyi sevgini görə bilməyən uşaq bu əskikliyi müxtəlif formalarda göstərir.

Davranış pozğunluğundan başqa görülə bilən başqa bir problem komorbid pozğunluqdur. Uşağın davamlı olaraq avtoritet fiquruna qarşı itaətsizlik göstərdiyi, üsyankar olduğu, müqavimət göstərdiyi və düşmən münasibət göstərdiyi bir vəziyyətdir. Parıldamaq, əsəbilik və etiraz etmək çox vaxt kombird pozğunluqla əlaqələndirilir. Daxili münaqişə və narahatlıq olan uşaq çox tez reaksiya verə bilir. Uşaqların ata-anasına qarşı çıxması çox rast gəlinən bir vəziyyət olsa da, uşağın düşünmədən deyilən hər şeyə qarşı çıxması və etiraz etməsi normal hal deyil (Amato, Keith, 1991: 43).

Sosial problemlərə başqaları ilə münasibət qura bilməmək, utancaqlıq, introversiya, sosial fobiya və özünə güvənməmək daxildir. Sosial mühitlərdə özünə qapanmağı üstün tutan uşaq, sosiallaşma problemi ola biləcəyi üçün depressiya və narahatlıq problemləri ilə üzləşə bilər. Utancaq olan uşaq başqaları ilə ünsiyyət qura bilmir, qrup işlərinə qatılmır, ictimai fəaliyyətlərə qatılmır, özünü dəyərsiz və lazımsız hiss edir, özünə güvənini itirir və pessimist əhval-ruhiyyədə olur.

Boulbinin fikrincə, uşaq şüuraltı olaraq öz sosial münasibətləri üçün bir model yaradır. Erkən yaşda uşağa göstərilən sevgi və şəfqət, uşağın təhlükəsizlik hissi ilə böyüməsinə imkan verir və buna görə də özünü sevilməyə və güvənməyə layiq biri kimi görür. Ancaq uşağa ehtiyac duyduğu sevgi və güvən hissini verilməzsə, uşaq özünü təkcə valideynləri tərəfindən deyil, həm də sosial münasibətlərində arzuolunmaz biri kimi görür (6).

Öz problemlərinə başı qarışan valideynlər uşağın qəzəbininin səbəbini anlamaq yerinə, onu başa düşməyərək, dinləməyərək reaksiya verirlər. Bu vəziyyət uşaq üçün ayrı bir məhvdir. Bundan əlavə, övladlarının heç bir şey hiss etmədiyini düşünərək, narahat bir mühitdə evliliyini davam etdirməyə çalışan ailələr, uşaqlarının əslində bu vəziyyəti qavradığını və hər şeydən xəbərdar olduğunu anlamaq istəmirlər.

Özünə hörmət insanın özünü qiymətləndirməsi və qəbul etməsi nəticəsində ortaya çıxan məmnunluq, özünü qəbul etmə və bəyənmə halıdır. Özünə hörməti inkişaf etmiş insanlar sosial, məktəb, ailə və iş münasibətlərində daha enerjili olur və daha inamlı addımlar atır. Özünə hörməti aşağı olan fərdlər isə yüksək özgüvəni olan fərdlərdən fərqli olaraq, özünə inamı, enerjisi az olur və özlərini daha az dəyərli görürlər (7).

Aparılan araşdırmalarda valideynləri boşanmış uşaqlarda hətta boşandıqdan sonra uşaqların hansı valideynin yanında qalmasından asılı olmayaraq boşanmamış ailələrin uşaqlarına nisbətən mənlik səviyyələrinin daha aşağı, narahatlıq səviyyələrnin daha yüksək olduğu müəyyən edilmişdir (8).

## Nəticə

Boşanmanın uşaqlara təsiri onların yaşı, cinsi, valideynlərlə münasibəti, həyat keyfiyyətinin dəyişməsi, valideynlərin yenidən evlənməsi kimi bir çox dəyişənlərdən asılıdır. Həyat yoldaşları arasındakı ayrılıq səviyyəli və mehriban olsa belə, uşaq boşanma qarşısında kədər, itki, gücsüz və müdafiəsiz hiss etmə kimi bir çox mənfi duyğular yaşaya bilər. Valideynlərinin boşanmasını utanc kimi görən uşaqlar da var. Belə uşaqlar adətən sosial münasibətlərində valideynlərinin boşanmasını dostlarından, sosial çevrəsindən gizlədirlər. Bəzi uşaqlar isə valideynlərinin boşanmasına görə özlərini günahlandırır, özlərini dəyərsiz və sevilməyən biri kimi hesab edirlər. Nəticədə isə bu onların özgüvənlərinə və özlərinə sevgisinə mənfi təsir göstərir.

Bütün bunları nəzərə alsaq, valideynlərin sağlam həyat tərzi keçirməsi onlara sağlam psixikaya malik hərtərəfli inkişaf etmiş şəxsiyyətlər yetişdirməyə imkan verir. Ailə quruluşu və valideynlərin ünsiyyəti uşağın psixikasına təsir göstərir. Valideynlər ayrı olsalar belə, ər-arvad arasında şəxsi münaqişələri nəzərə almadan, uşağın mənafeyini və rifahını nəzərə alınmaqla uşaqla bağlı məsələlərdə birgə qərar qəbul etməlidirlər. Valideyn-övlad münasibətlərinin uşağın inkişafında mühüm əhəmiyyəti olduğu faktını nəzərə alsaq boşanmış valideynlər övladlarının inkişafındakı ahəngin pozulmaması üçün və ya övladlarının bundan daha az təsirlənməsi üçün məlumatlı, anlayışlı olmalıdırlar. Ailədaxili sağlam ünsiyyət sağlam ictimai münasibətlərin qurulmasına səbəb olur.

Bu travmalar uşaqların həyatında ömürboyu izi qoyduğu üçün, daha keyfiyyətli gələcək nəsil formalaşdıra bilmək üçün valideynlər boşanmadan əvvəl, boşanma müddətində və boşanmadan sonra övladlarının psixologiyasını nəzərə alaraq daha həssas olmalı olduqları nəticəsinə gəlinmişdir.

## Ədəbiyyat

1. https://dergipark.org.tr/tr/download/article-file/115048
2. Öztürk, M. (2008). Boşanmış ailələrdəki uşaqlar. Türkiyə İş Bankı Mədəniyyət Nəşrləri, 99 s.
3. Nalbantoglu, G. (2016). "The relationship between mental problems of 6-11-year-old children with mothers' attachment level, child-rearing attitude and family functions". Master's thesis, Arel University Institute of Social Sciences, Istanbul Neurosci, 256 s.
4. Yörükoğlu, A. (2000). Uşaq psixi sağlamlığı. Ankara: Özgür Nəşriyyat.
5. Amato, P., Keith, B. (1991). Parental divorce ans the well-being children: Ameta-analysis. Journal of Marriage and the Family, 53(1), 43 p.
6. https://acikerisim.isikun.edu.tr/xmlui/bitstream/handle/11729/1277/1277.pdf?sequence=1&isAllowed=y
7. http://docs.neu.edu.tr/library/6327221854.pdf
8. https://dergipark.org.tr/tr/download/article-file/819921

Göndərilib: 18.11.2022 Qəbul edilib: 19.01.2023

DOI: https://doi.org/10.36719/2706-6185/19/22-27

**Nigar Emin Rzayeva**
Azerbaijan Architecture and Construction University
rzayeva-nigar@mail.ru

# ART AND ARCHITECTURE OF KOREA: TRADITION AND MODERNITY

## Abstract

For a long time, Korea has experienced the powerful influence of Chinese culture and art. Perceiving the best traditions of Chinese art, the Korean people creatively processed it and created their own remarkable original art. Early monuments of Korean culture have not survived our time, as they were usually destroyed during numerous invasions of foreign troops into the country. Only after the Second World War did the Korean people for the first time get the opportunity to study their native country, its history, and culture of the past. The article examines Korean architecture and art from the point of view of tradition and modernity.

***Keywords:*** *art, architecture, modernity, tradition, Korea*

**Nigar Emin qızı Rzayeva**
Azərbaycan Memarlıq və İnşaat Universiteti
rzayeva-nigar@mail.ru

## Koreya incəsənəti və memarlığı: ənənə və müasirlik

## Xülasə

Uzun müddətdir ki, Koreya Çin mədəniyyəti və incəsənətinin güclü təsirini yaşayır. Koreya xalqı Çin sənətinin ən yaxşı ənənələrini dərk edərək, onu yaradıcılıqla emal edərək, özünəməxsus gözəl orijinal sənətini yaratmışdır. Koreya mədəniyyətinin ilk abidələri dövrümüzə qədər gəlib çatmamışdır, çünki onlar adətən xarici qoşunların ölkəyə çoxsaylı basqınları zamanı məhv edilirdilər. Yalnız İkinci Dünya Müharibəsindən sonra Koreya xalqı ilk dəfə öz doğma ölkəsini, onun tarixini və keçmişinin mədəniyyətini öyrənmək imkanı əldə etdi. Məqalədə Koreya memarlığı və incəsənəti ənənə və müasirlik baxımından araşdırılaraq geniş şəkildə təhlilə cəlb edilir.

***Açar sözlər:*** *incəsənət, memarlıq, müasirlik, ənənə, Koreya*

## Introduction

Korean scientists have discovered grandiose burials of the 3rd-7th centuries AD. Excavations have shown the high skill of the builders in the construction of tombs, very diverse in their structure. The discovered crypts are distinguished by carefully executed masonry. Individual burials struck archaeologists with grandiosity: their walls are made of huge stone slabs up to 5 m long, and large mounds above them resemble natural hills. Many burials are decorated with well-preserved frescoes depicting genre scenes. Particularly interesting in terms of its constructive methods were discovered at the beginning of the 20th century. Near Pyongyang burial of the 6th century. In San Yenchon. Here, under the outer high hill, there is an underground burial chamber with a stepped roof made of a complex system of stone slabs, forming a kind of octagonal false dome, and two powerful hexagonal columns flanking the entrance. The walls of the burial chamber and the columns are richly painted with images of processions, birds, and plants, and the compliant ceiling is decorated with various ornamental paintings. In the 7th century, China subjugated the northern parts of the country, and in the south of Korea, a new state of Silla was formed, which eventually became an ally of China and gradually subjugated the entire peninsula. The cessation of wars caused the rise of productive forces (Sir Gompertz, 2003: 56).

As a result of the unification of Korea, agriculture was developed, which in ancient times was the basis of the country's economy. It was in the 7th-10th centuries. there is a significant

QƏDİM DİYAR Beynəlxalq onlayn elmi jurnal. 2023 / Cild: 5 Sayı: 1 / 22-27 ISSN: 2706-6185
ANCIENT LAND International online scientific journal. 2023 / Volume: 5 Issue: 1 / 22-27 e-ISSN: 2709-4197

development in science, art, and architecture. Penetrated in the VI century. to Korea from China, Buddhism contributed to the assimilation of new architectural forms in religious buildings. In the X century. the capital of the state of Silla (Gyeongju city) becomes the main center of culture and art. Near Gyeongju, there is also an ancient Buddhist temple Pul-Kuksa, located on Mount Tkhohamsan. The temple has been reconstructed, but the original gate with a high staircase, rising in two flights to the upper terrace, and the wonderful Tabotkhan pagoda, which is 10 m high, are well preserved. Built-in 751, it is a very rare monument of stone architecture throughout the Far East (Kuner, Dubrovina, 2010).

The cave temple of Seokkul-am (near Gyeongju, on the slope of Mount Thohamsan) was built in 742-764. in imitation of similar temples in India and China. It impresses with its remarkable processing of stone vaults and columns, as well as magnificent artistic bas-reliefs depicting Buddhist deities. The temple consists of two halls - quadrangular and round.



Under the huge stone dome of the main, round hall, there is a colossal Buddha statue. At the beginning of the X century. The state of Silla, which had suffered greatly after feudal strife, was subjugated by the large Korean feudal lord Wang Gen, who in 918 formed a new state union of Koryo. During the Goryeo period, Buddhism gained particular importance, becoming the backbone of the new state in the struggle against secular feudal lords. Numerous huge ensembles of Buddhist monasteries were erected in the valleys of the Zanansa and Phonunsa rivers in the Diamond Mountains, the largest of which were destroyed by American bombardments and burned with napalm. Changes in the architectural monuments of the Koryo period, due to the further development of feudal society, were especially pronounced in the architecture of the pagodas of this time (Dzharylgasinova, 2008). Built-in 1085, a small memorial pagoda Hanmyotang, about 7 m high, clearly testify to the departure of architects from the strict forms of the Silla period in the direction of greater decorativeness and splendor. This pagoda was built of light granite and covered with bas-reliefs on all sides. Its protruding parts create a wonderful effect of the play of light and shadow on the surface. Pagodas of this type are found only in Korea. Currently, it has been moved to Seoul and stands near the museum.



In the XIII century. the state of Koryo was attacked by the Mongol troops, who devastated the country. The expulsion of the Mongols from Korea at the end of the XIV century. Contributed to the struggle of the Chinese people, which led to the overthrow of the Mongol Yuan dynasty in China (in 1367). In 1392, the kingdom of Li (Lin), headed by the commander Lee Sen Ge, was formed on the territory of Korea. During this period, the state of Goryeo was renamed Chosen. Lee Sen Ge, having brutally suppressed the spiritual feudal lords - Buddhist monasteries, whose power became dangerous for the state power, confiscated their lands. A gradual decline in Buddhism and Buddhist architecture began in Chosen. Seoul became the capital of the country, which emerged as a military fortress on the way from China to the southern part of Chosen and as a trading center at the crossroads of trade routes in the center of the country. At the end of the XIV century. massive fortress walls with loopholes made of granite blocks were built around Seoul, reaching almost 20 km along their perimeter. The wall winds its way through the hills surrounding Seoul. Eight gates in different parts form passages to the city (Youngjun, 2001: 45).

The architectural appearance of the gates, crowned with wooden towers, usually decorated with double, slightly curved roofs, as well as their names (for example, “Gate of Solemn Tranquility”) indicate the very close ties of Chosen with Chinese culture of the 15th century. 34 Ensembles of royal palaces are located among green parks and groves in the northern part of Seoul. Of greatest interest is the old palace ensemble of Gyeongbokgung, surrounded by a massive wall with gates of a peculiar shape. First erected in 1394, it was destroyed by the hordes of the Japanese commander Hideyoshi in 1593 (Wollen, 2007).

At the beginning of the XX century Japan subjugated Korea and turned it into its colony. European-style buildings have grown in cities that have the significance of administrative centers. And only in the folk dwelling of Korea, the old traditional forms have been preserved up to the present day. A typical Korean traditional dwelling is a small one-story, very low house, sometimes reaching a height of only 2.5 m.





Numerous monuments of Korean architecture testify to the fine artistic taste and remarkable skill of the architects of this truly Land of Morning Calm. The picturesque art of Goguryeo, well preserved in a number of burials, gives a complete picture of its characteristic features and subjects. The close connection of the mural subjects with the life of that era is reflected in a large multi-figure composition on the north side of the corridor that bypasses the throne room from the north and east sides. The plane of the wall, on which this large scene is executed, reaches a length of up to 10 m. The graphic composition is sustained in a calm colorful range. The artist depicted a solemn procession, filling the entire wall of the burial with it. The complex composition of the procession, consisting of more than two hundred figures, probably showed the ruler of the country returning with his warriors from a successful campaign. In 427, the capital of the state of Goguryeo was moved to the area of modern Pyongyang. In its vicinity, the ruins of the palace building of the Ankhakkun ensemble have survived to this day, and fortresses that served as protection for the palace were located not far from it. It is not surprising that it was here that parts of the walls of the palace ensemble were preserved, and decorated with paintings depicting the life and life of not only the ruler of the country but also his nobles (Glukhareva, 1999: 54).

Having entered into a military alliance with China, Silla subjugated the state of Pekche in 660, and in 668 also Koguryeo. The rise of Buddhism, which became the official state religion, also contributed to the unification of the country. In the middle of the 7th century in Silla, the development of Buddhist rock sculpture began, which arose as an imitation of the sculpture of the temples of India and China. Of great importance was the Sokuram temple, which is an outstanding monument of world significance not only in terms of architectural design but also in terms of its sculptural complex. This temple was discovered by chance in 1913, and some of its sculptures were discovered later. The artistic design and design of the Sokuram temple indicate the high, mature skill of the builders who created such a domed ceiling, which for more than a thousand years has been able to withstand the enormous weight of the earth poured over it. On the sides of the entrance hall and at the entrance, the figures of eight heavenly governors and dragon spirits are symmetrically placed on the slabs. They stand frontally in armor and cloaks thrown over them and armed with spears. Their faces convey the individual characteristics of each, and headdresses and hairstyles indicate belonging to different countries. Against the entrance are reliefs depicting two door guards in warlike poses. The high reliefs of Sokuram are considered to be remarkable works of stone sculpture of the Far East. They reflect the desire of the creators not only to convey the external expressiveness of the image but most importantly - to reveal its spiritual essence. The development of the economy in the initial period of the rule of the Goryeo state contributed to the flourishing of culture in the second half of the 11th - early 12th centuries. In 990, the first public library was opened in the new capital of the country, Kegyong, which was preceded by the rapid development of book printing. Buddhism, which became the state religion in Korea, gained even more weight. Its spread among the broad masses of the people was facilitated by the formation of Buddhist sects, among which the sects of Heavenly Majesty and Sleep acquired special significance, with their teaching on self-contemplation as a path of enlightenment accessible to all. Sculpture in the X-XIV centuries. No longer had such great artistic significance as in the Silla period when expressiveness and deep spirituality of the image came to the fore in the works of sculptors (Abramov, 2011: 119).

Progressive traditions of Korean painting of the 18th century. were further developed in the art of the XX century. The artistic content of contemporary art in Korea is primarily the painting on the Joseon-hwa scrolls, which has existed for centuries. But in the thirties, European oil painting penetrated Korea. Therefore, in modern Korean art, there are, as it were, two directions: the traditional classical (Joseon-hwa painting) and the new, brought from European countries (oil painting on a primed canvas). Joseonghwa painting is preserved in its finest classical forms, developed by an 18th-century master. Chong Son and his students Kim Hongdo, Lee Insan, Choi Buk, and other artists of the 18th - early 19th centuries. An important motive in the work of artists of the traditional style is the transition from abstract landscapes to painting nature from nature. By tradition, the figure of the dancer is depicted without the surrounding background, which in this case focuses all the attention of the viewer on the plasticity of the depicted girl, and does not distract him with everyday details. A major master of the older generation is the painter Cha De Do. During the period of Japanese colonial rule, the artist left his homeland, worked in Beijing under the guidance of the great master of painting Qi Bai Shi. Returning to his homeland, Cha De Do refused to create paintings pleasing to the Japanese and preferred to be a miner in the mines. After the end of the war, the artist again took up the brush, creating in the 50s a wonderful painting "Pine, Bamboo and Peach," in which he brilliantly used all the best that is in the realistic traditions of past centuries. In the Peace Scroll, artist Choi Do Yeol depicts a child at play with touching warmth. The vertical compositional construction is distinguished by originality and conciseness (Glukhareva, 2003).

The portrait genre in modern Korean art of painting has not yet developed much. The sharpness and accuracy of the characteristics of people are manifested only in individual images of thematic paintings. On the other hand, a small, masterfully made painting by Pak Kyung Nan "Daughter" is perceived as a kind of portrait of a sleeping girl - her face is so characteristic, expressive, and exactly written. In graphics, woodcut engraving has recently been developed. Engravings by Kim

Gong-chung are informative and varied in the subject matter. An example of a dramatic and full of impressive expression of the solution to the theme is Hong Jong Won's woodcut "Mother from Phadyu", depicting the image of a woman who suffered from the cruelty of the Japanese occupiers in the village of Phadyu, in South Korea. The first sculpture park was opened in 1982, and now there are more than 10 sculpture parks in Korea, the most famous of which is the Sculpture Garden in the Olympic Park, created based on an open-air exhibition-workshop.

Today, artisans are trying not only to preserve the wonderful artistic traditions of the past but also to create new original products. Their unique beauty and individuality are highly valued by Koreans who are already tired of the monotony of mass-produced products.

Modern Korean development was inspired by the most visionary unbuilt projects that have influenced many urban planners around the world. Specifically, the ones developed by the great modern masters at the beginning of the twentieth century. Ludwig Hilberseimer with the projects of High Rise City in 1924 and Berlin's Gendarmenmarkt Square in 1927, envisioned a repetition of identical residential buildings, disposed of in a logical geometrical layout, completely disconnected from the existing context. Similarly, Walter Gropius's housing diagrams from 1929 show a clear scientific approach to the problem of large housing complexes. Ultimately, Le Corbusier's three main urban proposals – Contemporary City for Three Million People, 1922; Plan Voisin, 1925; The Radiant City, 1933 – were the main source of inspiration for the Korean architectural vision, in particular, his adherence to height, light, and geometrical order, were seen as salvation from inefficient and unhealthy urban sprawl. Another very important theory that influenced the definition of modern apartment complex planning in Korea is Clarence Perry's Neighbourhood Unit. The American urbanist developed the Neighbourhood Unit theory in 1929, which essentially defined a residential block delimited by transportation arteries (Prokofiev, 2012: 109).



The Neighbourhood Unit would be designed to accommodate a population that ranges from 3,000 to 9,000 residents - which corresponds to a primary school capacity of 1,000 to 1,600 students. It should be noted, however, that the 12 Future Housing: Global Cities and Regional Problems AMPS, Architecture_MPS; Swinburne University 09-10 June 2016 residential buildings were intended to be low-rise individual houses. This urban scheme is influenced by the Garden City, but the interesting fact is that the Garden City movement predicated urban dispersal as a reaction against the congested urban center, whereas the Korean tanji was intended to be located in the very heart of the city and the new expansion areas. Eventually, the urban layout adopted by Korean urban planners was a hybrid interpretation of Clarence Perry's Neighbourhood Unit, combined with the modernist's proposition of collective highrise residential towers and slabs. In reality, the tanji were not completely self-sufficient and the contemporary city is characterized by a collage of high-rise and low-rise buildings, with strict functional division. When comparing the 1950s and 1960s European applications with the Korean tanji, we note a distinctive political approach. While the European projects were developed as 'social housing' for the poor and located at the periphery of the city, the Korean high-rise

apartments were built within the existing city and oriented toward the growing middle class and upper-middle class. Similarly, while European social housing was intended to be rented, Korean housing was based on a policy of home ownership (Yoson, 2005: 104).

Other, more direct influences, should be credited to Japan and The USA. Japan developed its post-war modernization process earlier than Korea, also being the only Asian country to have developed an architectural avant-garde – the Metabolism – which has had an international impact. In contrast, South Korea had advanced a very unique corporation system, defined by the country's large construction conglomerates (chaebol). These large companies played – and still play – a key role in the urban and regional transformation, where large housing projects are the instrument used to dominate the real estate market, leaving only the small and middle-scale projects to more independent and progressive architectural firms.

## Result

Korea has experienced one of the fastest urban transformations in human history. Retracing the evolution of different housing types that emerged through the modernization process allows us to comprehend the resulting urban morphology and the altered social relationships in the contemporary city. After the initial adaptation of the traditional urban house and the early modern developments, the apartment building became the prevailing housing typology in South Korea. Its success has been determined by three main factors. First, the tanji were located in the city and not at the periphery as in the European cases. Second, the apartment buildings were constructed with high-quality standards and oriented toward the rising middle class and not the society's lower strata. Third, the remaining low-rise residential areas suffered from a lack of urban and architectural quality, becoming unattractive to the majority of the population, while in Europe the vernacular city was seen as a privileged place. In Korea, apartment buildings became the image of modern life and a highly desired product. Still, nowadays the apartment blocks are considered the best and most convenient preference for Koreans, and this trend is far from over. Thus a global architectural typology has been locally conditioned in both its spatial adaptation and its political application, determining the success of a housing type that has been disparaged elsewhere.

## References

1. Sir Gompertz, G. (2003). Celadon Koryo. Korean classical art.
2. Kuner, N., Dubrovina, E. (2010). Ancient Korean porcelain from the collection of the Museum of Anthropology and Ethnography. Collection of the MAE.
3. Dzharylgasinova, R. (2008). Ancient Kogures. The role of Jong Son and genre painters of the 18th century in the development of the national culture of Korea: Abstract of the thesis. dis. … cand., ist. Sciences. M-L.
4. Cor. lang. Youngjun, K. (2001). Hanguk sohwa inmyeon saso (Dictionary of Korean calligraphers and artists). Seoul.
5. Wollen, K. (2007). Hanguk misul sa (History of Korean Art). Seoul.
6. Glukhareva, O. (1999). Korean architecture. General history of architecture. M., T.1, s.358-362.
7. Abramov, L. (2011). Folk architecture of Korea. Korean classical art. M., s.80-93.
8. Glukhareva, O. (2003). The art of Korea from ancient times to the end of the 19th century.
9. Prokofiev, O. (2012). Modern art of the socialist countries of the East.
10. Cor. lang. Yoson, L. (2005). Joseon misul sa keyo (Essays on the history of Korean art). Pyongyang.

Received: 03.11.2022 Accepted: 27.12.2022

DOI: https://doi.org/10.36719/2706-6185/19/28-32

**Natəvan Vüqar qızı Mirzəyeva**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
magistrant
mirzeyevanatavan085@gmail.com

# AZƏRBAYCANDA HƏYATA KEÇİRİLƏN MƏDƏNİ TƏDBİRLƏRİN SOSİAL SİYASƏTİN İNKİŞAFINA TƏSİRİ

**Xülasə**

Bu məqalədə Azərbaycanın həyata keçirdiyi mədəni tədbirlərdən və onların inkişafa təsirindən bəhs olunur. Ötən əsrdə əsaslı özəyi qoyulan inkişaf tədbirlərinin günümüzdə hansı mexanizmlərdən istifadə ilə inkişafı, həmçinin gələcək yönümlü və davamlı mədəni strategiyanın yaradılmasından bəhs edilir. Sosial siyasətin bir sahəsi olan mədəniyyət və onun inkişafı yalnız bu sahənin deyil, həmçinin ölkənin də inkişafına, onun beynəlxalq arenada tanınmasına şərait yaradır. Müstəqillikdən öncə və sonra Azərbaycanda həyata keçirilən mədəni tədbirlərin sosial siyasətə təsiri və inkişafı ilə bağlı məsələlər öz əksini tapmışdır. Həmçinin məqalədə Ümummilli lider Heydər Əliyevin bu sahəyə göstərdiyi qayğı və apardığı uğurlu islahatlardan bəhs edilir. Eyni zamanda məqalədə Heydər Əliyev siyasətinin örnək davamçıları İlham Əliyev və Mehriban Əliyevanın sosial sahəyə, xüsusəndə mədəniyyət sahəsinə göstərdiyi diqqət və Azərbaycanın beynəlxalq sferada tanınmasına yol açan mexanizmlərdən bəhs edilir.

***Açar sözlər:*** *mədəniyyət, təhsil, inkişaf, islahat, sosial fəaliyyət*

**Natavan Vugar Mirzayeva**
Azerbaijan State Pedagogical University
master student
mirzeyevanatavan085@gmail.com

## The impact of cultural events in Azerbaijan on the development of social policy

**Abstract**

This article talks about the cultural measures implemented by Azerbaijan and their impact on development. It also talks about the development of the development measures, which were established in the last century, with the use of mechanisms, as well as the creation of a future-oriented and sustainable cultural strategy. Culture, which is a field of social policy, and its development creates conditions not only for the development of this field, but also for the country and its recognition in the international arena. Issues related to the influence and development of cultural events in Azerbaijan before and after independence on social policy are reflected. The article also talks about the care and successful reforms carried out by the national leader Heydar Aliyev in this field. At the same time, the article highlights the exemplary followers of Heydar Aliyev's policy, Ilham Aliyev and Mehriban Aliyeva's attention to the social sphere, especially the cultural sphere, and the mechanisms leading to the recognition of Azerbaijan in the international sphere are discussed.

***Keywords:*** *culture, education, development, reform, social activity*

## Giriş

Azərbaycan dövləti keçən əsrdə yaranmış olmasına baxmayaraq daim öz gələcəyi üçün işıqlı yollar tapmağa çalışmış və öz inkişafı ilə hər zaman Cənubi Qafqazda seçilmişdir. Məlum olduğu kimi, keçmiş sovet cəmiyyəti dövründə mövcud olan marksist-leninçi ideologiya Sovetlər İttifaqına daxil olan xalqların, o cümlədən Azərbaycan xalqının tarixi keçmişinin, böyük şəxsiyyətlərinin, milli ənənələrinin arxa plana keçirilməsinə və unutdurulmasına xidmət edib, vahid sovet ailəsi, son

onillikdə isə ümumi sovet xalqı anlayışı diktə olunub. Sovet ideologiyasının təsirləri özünü müəyyən müddət göstərsədə Azərbaycanın çoxplanlı və əhəmiyyətli inkişafı bu təsirlərin tez bir zamanda parçalanmasına və öz imkanları daxilində yeniliyin yaradılmasına səbəb olmuşdur. Bu inkişafın tarixi qədim zamanlara dayansada əsas özək məhz Azərbaycan Xalq Cumhuriyyəti dövründə qoyulub. Çətin şəraitdə öz müsəqilliyini bərpa edən bu dövlət sosietal sistemin bütün ünsürlərinin, xüsusilə də, mədəni yaradıcılıq sahəsində öz dəsti-xəttilə inkişafa nail olmuşdur.Təbii ki, inkişafın əsasında təhsil, elm dayanırdı. AXC-nin təhsil sahəsində reallaşdırdığı ilk addım 1918-ci il 27 iyun tarixli qərarı ilə Azərbaycan (türk) dilinin dövlət dili elan edilməsi idi (1). Hökumət ilkin olaraq milli kadrların hazırlanması və bu sahədə təhsilin yenidən təşkilinə xüsusi əhəmiyyət verirdi. Azərbaycan Cümhuriyyəti hökumətinin 1918-ci il 28 avqust tarixli qərarına əsasən, bütün ibtidai tədris müəssisələrində təhsil şagirdlərin ana dilində aparılmalı, dövlət dili olan Azərbaycan dilinin tədrisi isə məcburi surətdə həyata keçirilməli, ali, ibtidai və orta tədris müəssisələrində isə dərslər dövlət dilində aparılmalı idi. Azərbaycan dilini bilməyən şagirdlər üçün 3-cü və 4-cü siniflərdə Azərbaycan dili şöbələri açılmalı və burada Azərbaycan dili elə intensiv tədris olunmalı idi ki, iki ildən sonra həmin şagirdlər artıq bu dildə təhsillərini davam etdirə bilsinlər (2). Təhsilin inkişafını göstərən əsas amillərdən biridə qızların təhsilə cəlb olunmasını idi. Orta təhsil müəssisələrində azərbaycanlı qızların sayı artırdı. Məsələn, əgər 1918-1919-cu tədris ilində Gəncə gimnaziyasında cəmisi 4 azərbaycanlı qız oxuyurdusa, 1919-1920-ci tədris ilində onların sayı 296 nəfərə çatmışdır. Cümhuriyyət Hökumətinin fəaliyyət göstərdiyi qısa müddətdə Azərbaycanda üç ali təhsil ocağının - Bakı Dövlət Universitetinin, Əkinçilik İnstitutunun və Dövlət Konservatoriyasının təsis edilməsi barədə məsələ qaldırılmışdı. Onlardan yalnız birini - Bakı Dövlət Universitetinin açılmasını reallaşdırmaq mümkün oldu. Azərbaycan Xalq Cümhuriyyəti Parlamenti 1919-cu il sentyabrın 1-də "Bakı Dövlət Universitetinin təsisi haqqında" qanun qəbul etdi. 1919-cu il noyabrın 15-də Bakı Dövlət Universitetinin auditoriyalarında ilk mühazirələr oxundu (3). Azərbaycan Xalq Cümhuriyyəti Azərbaycan xalqının tarixi, siyasi və mənəvi-psixoloji həyatında, o cümlədən o dövrün ədəbi-bədii fikir nümunələrində silinməz izlər buraxmışdır. Azərbaycan Xalq Cümhuriyyəti mövcud olduğu qısa müddətdə xalqımızın mədəni inkişafına və tərəqqisinə böyük töhfələr verib. Xalq Cumhuriyyətinin yaranması milli teatrın inkişafında da canlanmaya səbəb olmuşdur. Əsası 1873-cü ildə qoyulmuş peşəkar Azərbaycan teatr sənəti XX əsrin əvvəlində milli mədəniyyətin ən sürətlə irəliləyən sahələrindən idi. Teatrın repertuarına Azərbaycan tarixi və milli azadlıq mübarizəsi ilə bağlı yeni əsərlər gəldi. AXC-nin mədəni yaradıcılıq sahəsində həyata keçirdiyi tədbirlər bu sahədə inkişafa mühim rol oynadı. Mədəni tədbirlər və onların ölkə inkişafına əsaslı təsiri ümummilli lider Heydər Əliyevin hakimiyyəti illərində daha qabarıq şəkildə özünü göstərir. Ulu öndərimiz Azərbaycanın bütün sahələri üzrə dinamik inkişafa qədəm qoymaqla yanaşı, milli mədəniyyətimizin daha yüksək zirvələr fəth etməsi üçün də möhkəm zəmin yaratmışdır. Respublikaya rəhbərlik fəaliyyəti dövründə ulu öndərimiz Heydər Əliyev musiqi, balet, teatr, kino sahəsində uğur qazanan istedadların ölkədən kənarda tanınması üçün məqsədyönlü tədbirlər həyata keçirmişdir. Mədəniyyət və incəsənət xadimlərinin yaradıcı axtarışlarına mənəvi dayaq olmaq ümummilli liderimiz Heydər Əliyevin həyat tərzinə çevrilmişdir. Bəstəkar, yazıçı, şair, aktyor, müğənni, rəssam əməyinə verdiyi yüksək qiymət sahəsində ölkəmizin yüzlərlə sənətçisi xalq artisti, xalq rəssamı, xalq şairi, xalq yazıçısı, əməkdar incəsənət xadimi, əməkdar artist, əməkdar rəssam, əməkdar mədəniyyət işçisi kimi müxtəlif fəxri adlara layiq görülmüşdür. 2003-cü ildə isə respublikamızın mədəniyyət müəssisələrinin sayı xeyli dərəcədə artmışdır. Həmin dövrdəki məlumatlara görə, ölkəmizdə 27 peşəkar teatr, 13 konsert müəssisəsi, 4124 kitabxana, 3066 klub müəssisəsi, 210 mədəniyyət və istirahət parkı, 159 muzey, 30-dan çox dövlət rəsm qalereyası və bədii sərgi salonu, 232 uşaq musiqi və incəsənət məktəbi fəaliyyət göstərirdi (Salmanlı, 2016). Bununla yanaşı həmçinin Azərbaycan təhsilinin milli tariximizdə coşğun yüksəlişi, əsl intibah illəri kimi daxil olan ilk mərhələsi Heydər Əliyevin Azərbaycana rəhbərliyinin birinci dövrünə təsadüf edir. Hələ ölkəmizə rəhbərliyinin birinci dövründə ümummilli lider Heydər Əliyevin təhsilimizə böyük qayğısının nəticəsi olaraq Azərbaycanda çoxlu sayda məktəb binası tikilərək istifadəyə verilib. Ölkədə təhsil ocaqlarının maddi-texniki bazası möhkəmləndirilib, lazımi avadanlıqla

təchiz olunub. Ulu Öndər daim gənclərin hərtərəfli inkişafına böyük önəm verirdi. Tarixi reallıqlardan aydındır ki, Heydər Əliyev SSRİ dövründə, yəni Azərbaycan Respublikasına rəhbərlik etdiyi ötən əsrin 70-80-ci illərində də bu məsələni daim diqqət mərkəzində saxlamış, eləcə də xalqımızın unudulmaz oğlunun rəhbərliyi ilə təhsil sistemində ciddi islahatlar həyata keçirilmişdir. 1972-ci ildə "Gənclərin ümumi orta təhsilə keçidini başa çatdırmaq və ümumtəhsil məktəbini daha da inkişaf etdirmək haqqında" və 1973-cü ildə "Kənd ümumtəhsil məktəblərinin iş şəraitini daha da yaxşılaşdırmaq haqqında" qəbul edilmiş qərarlar nəticəsində Azərbaycanda orta ümumtəhsil məktəbləri şəbəkəsi 3 dəfə genişləndirilərək 765-dən 2117-yə çatdırılmışdır (Azərbaycan tarixi, 2008: 527). Bu da yüzlərlə ucqar yaşayış məskənlərində orta ümumtəhsil məktəblərinin açılışı, minlərlə azyaşlının təhsilə cəlb edilməsi demək idi. Ulu öndər Heydər Əliyev müstəqillik illərində də elm və təhsilin inkişafını diqqətdən kənarda qoymamış, o cümlədən elm-təhsil problemlərinə kompleks şəkildə yanaşmışdır. Ölkə başçısı bu sahədə mövcud olan problemlərin aradan qaldırılması və Azərbaycanda dünyanın inkişaf etmiş ölkələrinin təcrübəsinə uyğun təhsil strategiyasının həyata keçirilməsi məqsədilə ciddi tədbirlər həyata keçirmiş, mühüm tarixi fərman və sərəncamlar imzalamışdır. Məsələn, 2002-ci il oktyabrın 4-də ölkə başçısının imzaladığı "Azərbaycan Respublikasında ümumtəhsil məktəblərinin müvafiq texniki bazasının möhkəmləndirilməsi haqqında" sərəncamı milli elm və təhsil sisteminin inkişafında vacib amillərdən biri kimi qiymətləndirilir. Bu sərəncam ümumtəhsil məktəbləri şəbəkəsinin genişləndirilməsinə, maddi-texniki bazasının möhkəmləndirilməsinə etibarlı zəmin yaratmışdır. "Azərbaycan Respublikasında yeni ümumtəhsil məktəblərinin tikintisi, əsaslı təmiri və müasir tədris avadanlıqları ilə təmin olunmasına dair proqramın (2003-2007-ci illər) təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 17 fevral 2003-cü il tarixli sərəncamı da ölkədə bu sahədə yaranmış problemlərin aradan qaldırılması yönümündə müstəsna əhəmiyyətə malik dövlət sənədi olmuşdur (6). Qeyd olunduğu kimi, ulu öndərin təhsil siyasəti konsepsiyasına əsaslanaraq demək olar ki, elm və təhsil iki müstəqil sahəni ehtiva etsə də onların birini digərindən təcrid etmək mümkün deyildir və bu baxımdan elm-təhsil problemlərinə kompleks şəkildə yanaşılmışdır. Hər iki istiqamət ümumi dövlət siyasətinin tərkib hissələrindən olduğundan və strateji mahiyyət daşıdığından onların inteqrasiyası da labüddür. Heydər Əliyevin müstəqil Azərbaycana rəhbərliyi dövrünə nəzər yetirsək, görərik ki, elm ilə təhsilin inteqrasiyası istiqamətində də çox önəmli işlər görülmüşdür. Əslində, bu iki müstəqil sistemin həmişə qarşılıqlı əlaqəli şəkildə inkişafı labüddür. Çünki elmin təhsilsiz, təhsilin isə elmsiz mövcudluğu qeyri-mümkündür. Heydər Əliyevin misilsiz siyasəti günümüzdə İlham Əliyev cənabları tərəfindən uğurla həyata keçirilir. Ölkə başçısının "Azərbaycan Respublikasında ümumtəhsil məktəblərinin informasiya və kommunikasiya texnologiyaları ilə təminatı Proqramının (2005-2007-ci illər) təsdiq edilməsi haqqında" 21 avqust 2004-cü il tarixdə imzaladığı sərəncam bu günümüz üçün zəruri olan informasiya texnologiyalarından müasir tələblərə uyğun istifadə problemlərinin həlli baxımından strateji əhəmiyyət kəsb edir (7). Təbii olaraq, bu tarixi sənəd indiyədək bu sahədə mövcud olan boşluqların doldurulmasına, dünyəvi təhsilə inteqrasiya yönümündə çatışmazlıqların aradan qaldırılmasına, gənc nəslin müasir standartlara uyğun daha dərindən savadlanmasına önəmli kömək göstərir. Artıq bu günün reallıqları sübut edir ki, Heydər Əliyevin siyasi kursuna uyğun aparılan islahatlar müsbət nəticələr verir və Azərbaycan dövlətini bütün dünyada layiqincə təmsil etməyə, eləcə də ölkənin hərtərəfli inkişafında yaxından iştirak etməyə qadir olan gənc nəslin yetişməsinə şərait yaradır. Həmçinin İSESKO-nun qərarı ilə 2009-cu ildə Bakı İslam Mədəniyyətinin Paytaxtı kimi bir sıra tədbirlərin məkanına çevrildi ki, bu da mədəniyyət sahəsinə göstərilən dəyərin nəticəsi idi. Prezident İlham Əliyevin ali hakimiyyət illəri içində təmir edilən, əsaslı şəkildə yenidən qurulan mədəniyyət müəssisələrinin, yeni tikilən sənət ocaqlarının, keçirilən çoxsaylı beynəlxalq festival, yarışmaların, haqq edənlərin dövlət mükafatları ilə təltif edilməsinin, istedadların üzə çıxarılmasının siyahısı uzundur. Bunlar ardıcıl, məqsədyönlü siyasətin tərkib hissəsidir. Dövlətin mədəniyyət siyasətinə ayrılan büdcə vəsaiti ilbəil artmaqdadır. Dövlət başçısı torpağın altındakı mədəni xəzinələrimizin üzə çıxarılmasına da, Azərbaycanın dünya kosmos ailəsinin üzvü olmasına da eyni diqqət və qayğı ilə yanaşıb.Pandemiya və müharibə dövründə ölkənin mədəniyyətinə, klassik irsinə

sədaqət nümayiş etdirilib. "Nəsimi İli", "Nizami Gəncəvi İli", Aşıq Ələsgərin 200 illik yubileyinin dövlət səviyyəsində keçirilməsi, sosial müdafiəyə ehtiyacı olan mədəniyyət işçiləri, incəsənət xadimlərinin qayğı ilə əhatə olunması, beynəlxalq müstəvidə mədəni sərvətlərimizin qorunması diqqətdə saxlanılıb. 44 günlük müharibədən sonra qazanılmış şanlı zəfər Azərbaycanı yenidən əzəli torpaqlarına qovuşdurdu.Danılmaz faktır ki,bu torpaqlarda olduğu müddətdə erməni faşizmi çoxəsrlik tarixə malik Azərbaycan mədəniyyətini məhv etməyə çalışmış,tarixi məkanlara və abidələrə zərər vermişdir.Qazanılmış zəfərdən sonra məhz ilk addım bərpa işlərinə və mədəniyyəti yenidən dirçəltməyə yönəlmişdir. Bir sözlə, mədəniyyət Prezident İlham Əliyevin xüsusi önəm verdiyi əməli fəaliyyət sahələrindəndir. Dövlətimizin başçısı 2021-ci ilin ilk ayında Şuşanı Mədəniyyət paytaxtı elan etdi və bu il ölkəmizdə "Nizami Gəncəvi İli" kimi qeyd olunur (8).

Mədəniyyət və elm sahəsinə xüsusi önəm və qayğı göstərən və hər zaman diqqət mərkəzində saxlayan,dünyaya mədəniyyətimizi tanıdan şəxslər sırasında Azərbaycan Respublikasının birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun və Azərbaycan Mədəniyyət Fondunun prezidenti, UNESCO və İSESCO-nun xoşməramlı səfiri Mehriban Əliyevadır. Məlum olduğu kimi, Azərbaycanın birinci xanımının respublikada və beynəlxalq miqyasda aktiv ictimai fəaliyyəti 1995-ci ildə yaradılan Azərbaycan Mədəniyyətinin Dostları Fondunun təsisi ilə başlanıb. Təşkilatın əsas məqsədi milli incəsənətimizin inkişafı, təbliği, xarici ölkələrdə daha geniş tanınması, Azərbaycan xalqının dünya mədəniyyətinə inteqrasiyası, yeni beynəlxalq əlaqələrin formalaşması məsələlərinin həyata keçirilməsindən ibarətdir. Mehriban Əliyeva fondun işini 3 istiqamətə – mədəni tədbirlər, xeyriyyə aksiyaları, naşirliyə yönəltmişdir. Azərbaycanın mədəniyyət, elm, təhsil, idman sahələrindəki uğurlarını ölkədə və beynəlxalq aləmdə tanıtmaq məqsədilə "Azərbaycan – İrs" jurnalı Azərbaycan, ingilis və rus dillərində nəşr edilməyə başladı. 2004-cü il may ayının 10-da isə Azərbaycanın tərəqqisi və xalqın rifahı naminə elm, təhsil, mədəniyyət, səhiyyə, idman, ekoloji sahələrə aid proqram və layihələr hazırlayıb həyata keçirmək, respublikanın və xarici ölkələrin təhsil müəssisələri ilə əməkdaşlıq etmək, elmi tədqiqatların aparılmasına yardım göstərmək, ölkənin yaradıcı və elmi potensialının artırılmasına kömək etmək, uşaq müalicələrinin infrastrukturunu, səhiyyə və tibbi təsisatları inkişaf etdirmək və başqa layihələri həyata keçirmək üçün Mehriban xanım Əliyevanın təşəbbüsü ilə qeyri-hökumət və qeyri-kommersiya təşkilatı olan Heydər Əliyev Fondu yaradılır.

Azərbaycanın birinci xanımı uşaqların təhsilini və sağlamlığının qorunmasını öz fəaliyyətinin əsas qayəsi bilmişdir. Mehriban xanım həmişə, xüsusən də Heydər Əliyev Fondu fəaliyyətə başladığı ilk gündən təhsil problemlərinin həllini özünün başlıca vəzifələrindən biri kimi elan etmiş, "Uşaq evləri və internat məktəblərinin inkişafı", "Yeniləşən Azərbaycana yeni məktəb", "Təhsilə dəstək" proqramları çərçivəsində çox böyük işlər görmüşdür. Fondun dəstəyi ilə 2005-2014-cü illər ərzində ölkənin müxtəlif bölgələrində 100 mindən çox şagirdin təhsil aldığı 412 məktəb binası inşa olunmuş və yenidən qurulmuş, "Təhsilə dəstək" layihəsi çərçivəsində respublika üzrə 20-dən çox uşaq bağçası əsaslı təmir olunaraq müasir avadanlıqla təchiz edilmiş, "Uşaq evləri və internat məktəblərinin inkişafı" proqramı çərçivəsində respublika üzrə 32 uşaq müəssisəsi əsaslı təmir edilmişdir. Bütün bunlar Mehriban xanımın rəhbərliyi ilə təhsil sahəsində görülən çoxsaylı işlərin kiçik bir hissəsidir.

Azərbaycan xalqının mədəni ənənələri və tarixində dərin köklərə malik muğam sənətinin inkişafı və təbliği, Azərbaycan milli musiqi irsinin hifz edilməsi, dünya incilərinin Azərbaycanda tanıdılması Heydər Əliyev Fondunun mədəniyyət sahəsindəki fəaliyyətində mühüm yer tutur. Heydər Əliyev Fondu daim Azərbaycan xalqının düşüncə sistemində xüsusi yer tutan ali dəyərlərə tapınaraq cəmiyyətin mənəvi cəhətdən saflaşmasına və yüksəlişinə, milli mədəniyyətin yad təsirlərdən qorunmasına yönəldilmiş xoşməramlı missiyanın daşıyıcısıdır. Mehriban Əliyeva müəllifi və rəhbəri olduğu "Azərbaycan muğamları" layihəsinin "Qarabağ xanəndələri" adlı tarixi, elmi, mədəni dəyərlərə malik ilk bölümünü 2005-ci ilin mart ayında Parisdə UNESCO-nun xoşməramlı səfirlərinin illik toplantısında təqdim etmişdir. Qarabağ muğam məktəbi, onun tanınmış nümayəndələri haqqında nəfis şəkildə tərtib olunmuş kitab Azərbaycanın ayrılmaz ərazisi olan Qarabağın çoxəsrlik muğam tarixini əks etdirir. Xalqımızın bənzərsiz muğam sənəti nümunələri

Şərqin əvəzsiz ifaçılarından Cabbar Qaryağdıoğlu, Məşədi Məhəmməd Fərzəliyev, Məcid Behbudov, Seyid Şuşinski, Xan Şuşinski, İslam Abdullayev, Bülbül, Zülfü Adıgözəlov, Əbülfət Əliyev və müasir muğam ustalarının, cəmi 24 sənətçinin ifasında səsləndirilən “Qarabağ xanəndələri” kompakt diskləri hazırlanmışdır. Xalqımızın çoxəsrlik muğam tarixini əks etdirən bu musiqi albomu Azərbaycan, ingilis, rus, fransız, alman, italyan dillərində nəşr edilmişdir. Tədbirdə Qarabağ muğamı haqqında danışan xoşməramlı səfir Mehriban Əliyeva həm də mənəvi işğala məruz qalmış Azərbaycanın haqq səsini dünyaya çatdırmışdır.Mehriban xanım Əliyevanın təşəbbüsü ilə qədim muğam sənətimizin qorunub saxlanılması, zəngin tarixə malik ifaçılıq sənətinin gələcək nəsillərə çatdırılması, nəhayət, muğamın inkişafı, yeni ifaçılar nəslinin yetişdirilməsi məqsədilə muğam televiziya müsabiqələri keçirilməyə başlanmışdır. Artıq ənənə şəklini almış bu müsabiqələr xalqımızın sərvəti olan muğamın incəliklərini respublikamızda və xaricdə yaşayan azərbaycanlılara aşılamaq, həm də bu sənəti qorumaq, inkişaf etdirmək məqsədilə 2005, 2007, 2009, 2011, 2013, 2015-ci və 2017-ci illərdə keçirilib, qaliblər Heydər Əliyev Fondu tərəfindən mükafatlandırılıb (9). Həmçinin Mehriban xanım Əliyevanın təşəbbüsü ilə Azərbaycanın müstəqilliyinin 20-ci ildönümü ilə əlaqədar 2011-ci ildə Fransanın paytaxtı Parisdə, Rusiya Federasiyasının paytaxtı Moskvada, Vatikan dövlətində, İtaliyanın paytaxtı Romada Heydər Əliyev Fondu və Azərbaycan Respublikasının həmin ölkələrdəki səfirliklərinin dəstəyi ilə keçirilən “Azərbaycan gecəsi” adlı tədbirlər mədəniyyət və incəsənətimizin dünyada təbliğində mühüm rol oynamışdır.

## Nəticə

Nəticə olaraq onu qeyd etmək lazımdır ki, Azərbaycan hansı dövrdə olmasına və ya başına gəlmiş müsibətlərə baxmayaraq daim öz inkişafına diqqət yetirən, hər zaman milli irsini qoruyaraq novator yolu seçən və dünyaya inteqrasiya edən bir dövlətdir. Bu prosesi davamlı etmək təbii ki, savadlı kadrlardan və öz tarixini, keçmişini unutmayan, vətənpərvərlik hisləri ilə dolub-daşan, xalqının səsini dünyaya duyurmaq istəyən gənclərdən asılıdır. Məhz buna görədə keçmişdə və indidə aparılan islahatlar, həyata keçirilən inkişaf proqramlarının əsasında təhsil, mədəniyyət və elm dayanır. Bütün bunlar sağlam düşüncəli gənclik, bu gənclik isə daha möhkəm Azərbaycan yaradır.

## Ədəbiyyat


1. https://azertag.az/xeber/Musteqillik_dovrunde_Azerbaycan_elmi-1006268
2. https://science.gov.az/az/news/open/17057
3. http://www.anl.az/down/meqale/medeniyyet/2010/may/118566.htm
4. Salmanlı, R. (2016). AXC-nin dil siyasəti. “Azərbaycan” qəzeti, 27 may.
5. Azərbaycan tarixi. (2008). Yeddi cildlik. V cild. Bakı, 527 s.
6. https://azedu.az/az/news/9316-heyder-eliyevin-tehsil-yolu-ve-bu-sahede-gorduyu-boyuk-isler-anim-gunu-
7. http://www.anl.az/down/meqale/ses/2010/iyun/125377.htm
8. http://www.anl.az/down/meqale/xalqqazeti/xalqqazeti_dekabr2009/99233.htm
9. https://mehribanaliyeva.preslib.az/media-63tDFyBOJK.html


Göndərilib: 17.11.2022 Qəbul edilib: 04.01.2023

## İÇİNDƏKİLƏR

**Aynur Aydın qızı Fərəcova**
"Oğuznamə" eposunun Uyğur versiyasında Oğuz Kağan obrazının
teoqonik semantikası ....................................................................................................5
**Sevinc Akif qızı Qurbanova**
Ümummilli lider Heydər Əliyevin Şuşaya zəngin tarixi abidə kimi qayğısı ...................................13
**Şahanə Malik qızı Löymanova**
Boşanmanın yeni nəslin keyfiyyətinə vurduğu zərərlər ....................................................................18
**Nigar Emin Rzayeva**
Art and architecture of Korea: tradition and modernity ....................................................................22
**Natəvan Vüqar qızı Mirzəyeva**
Azərbaycanda həyata keçirilən mədəni tədbirlərin
sosial siyasətin inkişafına təsiri ..........................................................................................28

İmzalandı: 27.01.2023
Formatı: 60/84, 1/8
H/n həcmi: 4.25 ç.v.
Sifariş: 617

---

“ZƏNGƏZURDA” çap evində çap olunub.
Ünvan: Bakı şəh., Mətbuat prospekti, 529-cu məh.
“Azərbaycan” nəşriyyatı, 6-cı mərtəbə
Tel.: +994 50 209 59 68
+994 55 209 59 68
+994 12 510 63 99
e-mail: zengezurda1868@mail.ru